"Azərbaycan Dövlət Pedaqoji Universitetinin mətbu orqanı"

GƏNC MÜƏLLİM QƏZETİ



H.Əliyev

"Müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda, ikiqat məsuliyyətli işdir!"





"ADPU-da professor-müəllim heyətinin tədris yükünün azaldılması Qaydası" təsdiq olunub

Qəbul olunan qaydalar ADPU-da professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyətlərini dəstəkləmək və stimullaşdırmaq məqsədi daşıyır.

Qaydalarda elmi uğurları və tədqiqat səriştəsi əsas alınaraq professor-müəllim heyətinin illik tədris yükünün 40%-dək azaldılması meyarları əks olunur. Qaydalara uyğun olaraq, müəyyən olunmuş 9 meyardan ən az 4-nə cavab verən tədqiqatçı müəllimlərin müraciətləri əsasında onların dərs yükü azaldılacaq. Lakin bu qaydadan yararlanan tədqiqatçıların sayı ADPU-nun tam ştatda olan professor-müəllim heyətinin 5 faizindən çox olmamalıdır. Qaydaların tətbiqinin əsas məqsədi akademik heyətin elmi-tədqiqat nəticələrini stimullaşdıraraq onları daha da yüksəltmək və nəticədə universitetin akademik nüfuzunu artırmaqdır.



"ADPU-da akademik mikrokreditləşmə Qaydası" qəbul olunub

Pedaqoji sahədə innovativ yanaşmaların tətbiqini qarşıya məqsəd qoyan ADPU-da bu qaydaların qəbulunda əsas məqsəd Pedaqoji Universitetdə mikrokreditləşmə modelinin təşkili və tətbiqinə dair əsas prinsipləri və prosedurları müəyyən etməkdir.

Beynəlxalq təcrübənin təhlili ilə müvafiq qanunvericilik aktları və ADPU-nun nizamnaməsi əsasında hazırlanan qaydalar müasir təhsil tendensiyalarına uyğun olaraq informal təhsilin kreditlər halında rəsmiləşməsini hədəfləyir və universitetdə akademik mikrokreditləşmə ali təhsilin keyfiyyətinin artırılması, tələbəyönümlü təhsil mühitinin formalaşdırılması, çevik öyrənmə imkanlarının genişləndirilməsi məqsədilə tətbiq olunur.

Qeyd edək ki, akademik mikrokredit müəyyən bir fənn və ya modul çərçivəsində tədris olunan, müstəqil öyrənmə nəticələri ilə müşayiət olunan və ayrı-ayrılıqda qiymətləndirilən qısa müddətli öyrənmə vahidi (kurs, seminar, təlim və seçilmiş fənn vəvə ya fənnlər) olub rəsmi sənədlə təsdiq olunur.

Bu model vətəndaşlara nəticəyönümlü fərdi öyrənmə xəritələrinin qurulması, qiymətləndirmənin çevikliyi və mərhələliliyi, tanınma və akkumulyasiya imkanları yaradır.

Bu statistik məlumatlar ADPU-nun Elmi Şurasının 12 sentyabr 2025-ci il tarixli iclasında təqdim olunan məlumatlara əsaslanır.



"ADPU-da elmi-tədqiqat prosesində süni intellekt texnologiyalarından istifadəyə dair Qaydalar" qəbul olunub

Bu qaydaların məqsədi Pedaqoji Universitetdə süni intellekt (Sİ) texnologiyalarının tədris və elmi-tədqiqat proseslərində istifadəsini tənzimləmək və bunun etik, hüquqi və akademik dürüstlük prinsiplərinə uyğunluğunu təmin etməkdir. "Azərbaycan Respublikasının 2025 - 2028-ci illər üçün süni intellekt Strategiyası"na əsaslanaraq müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla hazırlanan qaydalar ADPU-nun bütün strukturları, akademik heyət, inzibati idarəçilər, tədqiqatçılar, və bütün səviyyələrdə təhsilalanlarına şamil olunur.

Qaydalar görə universitetdə süni intellekt tədris və qiymətləndirmənin avtomatlaşdırılması, fərdi tədris planlarının hazırlanması, tədqiqat məlumatlarının təhlili və vizualizasiyası, elmi məqalə və hesabatların hazırlanması, plagiatın aşkarlanması və istinadların avtomatik tərtibatı kimi müxtəlif sahələrdə tətbiq oluna bilər. Qeyd edək ki, qaydalara əsasən Sİ-nin tətbiqi ilə yaradılan nəticələr də müəllifin əqli mülkiyyəti sayılacaq, amma insan tədqiqatçının nəzarəti və təsdiqi ilə qəbul olunacaq. Müəlliflər tədqiqatdakı Sİ məhsulları haqqında açıq məlumat verməlidirlər və onlar ADPU-nun antiplagiat qaydalarına əsasən yoxlanılacaq. Universitetin elmi tədqiqat fonduna təqdim olunan Sİ əsaslı işlərdə müəlliflik hüququ məsələlərinə Azərbaycan Respublikasının qanunvericiliyi əsasında ayrıca baxılacaq. Həmçinin, tədqiqat məqsədilə olsa belə, Sİ platformalarına şəxsi və korporativ, həssas və ya məxfi məlumatların daxil edilməsi qadağandır.



Pedaqoji Universitet: Qəbul dövründə 8 milyondan çox baxış, 12.500-dək müraciət


2025/2026-cı tədris ili üçün ali məktəblərin bakalavriat və magistratura pillələrinə tələbə qəbulu və elektron qeydiyyat prosesi müddətində (30 iyun 2025-ci il – 11 sentyabr 2025-ci il tarixləri aralığında) Pedaqoji Universitetin İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi tərəfindən abituriyentlərdən, tələbələrdən, həmçinin ictimaiyyət və media nümayəndələrindən daxil olan müraciətlərə çevik cavab verilməsi istiqamətində planlı iş aparılıb. Xüsusilə abituriyentlər və onların valideynlərinin ixtisas seçimi, mövcud ixtisaslar, universitetin infrastrukturu və naviqasiyası, təqaüd imkanları, yataqxana, onlayn qeydiyyat, təhsil tələbə krediti və digər bu kimi məsələlərlə bağlı müraciətləri operativ şəkildə nəzərdən keçirilib və zəruri dəstək göstərilib.

30 iyun – 11 sentyabr tarixləri aralığında universitetin sosial media hesablarında məlumat xarakterli 60 poster və videoməzmun paylaşılıb ki, bu məzmunlar rəsmi instaqram, feysbuk və linkedin səhifələri, teleqram, votsap və yutub kanalları vasitəsilə ümumilikdə 8 milyon 125 min dəfə izlənilib. Bu, paylaşımlara orta hesabla bir gün ərzində 112 min 847 dəfə baxılması deməkdir. Hesabat dövrü ərzində şöbə tərəfindən vətəndaşlardan müxtəlif əlaqə vasitələri ilə daxil olmuş ümumilikdə 12.453 müraciət operativ qaydada cavablandırılıb ki, bu da orta hesabla bir günə 173 müraciət deməkdir. Onlardan 10.199-u instaqram səhifəsi üzərindən, 1.239-u votsap xəttindən, 356-ı feysbuk, linkedin, teleqram səhifələri və imeyl vasitəsilə, 609-u isə zəng formasında daxil olan müraciətlərdir.


Qeyd edək ki, ötən ilin analoji dövrü ərzində cavablandırılmış müraciətlərin ümumi sayı 5.356 təşkil etmişdir ki, bu da ötən illə müqayisədə 132.5 %-dən çox artım deməkdir.

Onlayn qeydiyyatla bağlı universitetdə yerində müraciət xidmətinin təşkil edilməməsinə baxmayaraq, müraciət etmiş 50-dən çox vətəndaşa yerində xidmət göstərilib.

Şöbə tərəfindən ADPU-ya yeni qəbul olunmuş tələbələrin məlumatlandırılması və tədris prosesinə adpaptasiyasına dəstək göstərilməsi istiqamətində işlər davam etdirilir.



Pedaqoji ixtisasların plan yerlərinin 36 faizi ADPU-nun payına düşür



Yüksək balla ADPU-nu seçən tələbələrin sayı artır



ADPU-ya qəbul olan tələbələrin 64%-i dövlət sifarişi ilə təhsil alacaq

Aprel döyüşlərinə həsr olunmuş tədbir keçirilib



Aprelin 4-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının "Ü.Hacıbəyli-68" Ərazi Partiya Təşkilatının (ƏPT) təşkilatçılığı ilə Aprel döyüşlərinin 9-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə universitetin rəhbərliyi, hərbçilər, professor-müəllim heyəti, şəhid ailələrinin üzvləri və tələbələr iştirak ediblər.

Tədbirdən öncə iştirakçılar universitetin foyesində şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmış "Zəfər guşəsi"ni və Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə tər çiçəklər qoyublar.

Tədbirdə açılış nitqi ilə çıxış edən "Ü.Hacıbəyli-68" ƏPT sədri dosent Sultanəli Qurbanov Aprel döyüşlərinin əhəmiyyətindən danışaraq, bu qələbənin xalqın və ordunun birliyi sayəsində əldə edildiyini vurğulayıb.

ADPU-nun rektoru professor Cəfər Cəfərov çıxışında Aprel döyüşlərinin Azərbaycan tarixində mühüm hadisə olduğunu, bu qələbənin 2020-ci ildəki Böyük Zəfərin əsasını qoyduğunu bildirib. C.Cəfərov şəhidlərimizin igidliyinin heç zaman unudulmayacağını və onların xatirəsinin daim uca tutulacağını qeyd edib. Bu gün müstəqil və güclü Azərbaycanın regionda sabitliyin və inkişafın qarantı olduğunu qeyd edən rektor ordu quruculuğu sahəsində atılan addımların, şəhid və qazilərimizə göstərilən qayğının, Vətən müharibəsindən sonra azad olunan torpaqlarda aparılan genişmiqyaslı quruculuq işlərinin ölkəmizin inkişaf yolunu daha da möhkəmləndirdiyini diqqətə çatdırıb. Tədbirdə şəhid ailələrinin üzvləri - Milli Qəhrəman Polad Həşimovun anası Səmaya Həşimova, şəhid Cabrayıl Dövlətzadənin anası Məleyka Məmmədzadə, şəhid Xudayar Yusifzadənin anası Rada Qurbanova və şəhid Pəncəli Teymurun anası Vahimə Teymurova çıxış edərək, övladlarının timsallarında qəhrəman Azərbaycan oğullarının həm Aprel döyüşlərində, həm də Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqlardan söz açıblar. Onlar, həmçinin Azərbaycan dövlətinin şəhid ailələrinə və qazilərə olan diqqət və qayğısına görə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin nümayəndəsi Fərid Fərəyad döyüşlər zamanı hərbçilərimizin göstərdiyi igidlik və döyüş ruhundan danışıb, Azərbaycan Ordusunun Vətənə sədaqətini bir daha vurğulayıb.

ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev çıxış edərək Aprel döyüşlərinin tarixi əhəmiyyətindən və bu cür tədbirlərin gənclər arasında vətənpərvərlik ruhunun aşılanması baxımından vacibliyindən söz açıb.

ADPU və Beynəlxalq Final Universiteti arasında akademik əməkdaşlıq qurulur



Aprelin 2-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Türkiyənin Beynəlxalq Final Universitetinin (BFU) nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Beynəlxalq Final Universitetinin rektoru professor Orxan Gəmiqonaqlı, icraçı direktor Bülənd Daşəl, beynəlxalq əlaqələr üzrə koordinator və Multikultural Yay Məktəbi Departamentinin direktoru Orxan Həsənoğlu, ADPU tərəfindən isə universitetin rektoru professor Cəfər Cəfərov, beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova, tədris işləri üzrə prorektoru dosent Eldar Aslanov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Günay Məhərrəmova iştirak ediblər.

Görüş zamanı universitetlərarası akademik əlaqələrin inkişaf perspektivləri, ortaq elmi tədqiqatların aparılması, təhsil proqramlarının inteqrasiyası və müəllim-tələbə mobilliyi kimi əsas mexanizmlərin həyata keçirilməsi məsələləri müzakirə edilib. Görüşün sonunda ADPU və Beynəlxalq Final Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Magistrantların VIII Respublika elmi konfransı rekord sayda iştirakçı ilə keçirilib







Aprelin 8-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Təhsildə menecment və yeni təlim texnologiyaları" mövzusunda magistrantların VIII Respublika elmi konfransı işə başlayıb.

Plenar iclasda giriş sözü ilə çıxış edən ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, konfransın Təşkilat Komitəsinin sədr müavini professor Asəf Zamanov vurğulayıb ki, konfrans Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilib. Prorektor qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin elm strategiyası milli quruculuq siyasətinin əsas istiqamətlərindən biri olub. Bu strategiya hazırda Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azad olunmuş torpaqlarımızda, təhsil ocaqları, o cümlədən ali məktəblər yaradılır. Respublika elmi konfransı da elmin vacibliyinin dərk olunması və xüsusilə gənclər arasında təbliği baxımından mühüm əhəmiyyətə malikdir. Ölkəmizdə və ADPU-da elm və təhsilin inteqrasiyası istiqamətində son illərdə aparılan islahatlar elm və təhsilin inkişafında yeni mərhələnin başlanğıcı, bu vacib sahəyə yüksək diqqət hesab oluna bilər.

Vurğulanıb ki, ADPU-da magistratura və doktorantura səviyyəsində dövrün tələblərinə uyğun yeni nəsil mütəxəssislər hazırlanması işini təkmilləşdirmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Beynəlxalq təcrübə öyrənilir, dövrün tələblərinə uyğun yeni ixtisaslar yaradılır, mütəxəssis hazırlığında əsaslı irəliləyiş müşahidə olunur, mövcud ixtisaslaşmaların məzmununun, o cümlədən təhsil proqramlarının və tədris planlarının yenilənməsi istiqamətində iş aparılır. Hazırda universitetdə 22 ixtisas üzrə 30 ixtisaslaşmada magistr hazırlığı həyata keçirilir.

ADPU-nun magistratura səviyyəsində ənənəvi ixtisaslaşmalardan başqa son illərdə universitetdə yeni ixtisaslaşmalara qəbul aparılır. Onlardan menecment (təhsilin təşkili və idarə olunması) ixtisaslaşması üzrə ABŞ-ın Corc Vaşinqton Universiteti ilə həyata keçirilən ikili diplom proqramı, menecment (ali təhsilin təşkili və idarə edilməsi) ixtisaslaşması, MBA proqramı üzrə "Təhsilin təşkili və idarə olunması" və "Təhsil üzrə marketinq fəaliyyəti" ixtisaslaşmaları, eləcə də "SABAH" proqramı üzrə "Təlim və tədrisin təşkili və metodikası", "Təshildə qiymətləndirmə və monitorinq", "Menecment (ali təhsilin təşkili və idarə olunması)" ixtisaslaşmasını göstərmək olar.

Prorektor sonda qeyd edib ki, konfrans təkcə bilki mübadiləsi üçün deyil, həm də ölkəmizin təhsil siyasətinin inkişafı və gənc tədqiqatçıların gələcəkdəki töhfələri haqqında düşünmək üçün bir platformadır. Bizim burada toplaşmaqda məqsədimiz mövcud tədqiqatlarımızın nəticələrini paylaşmaqla bərabər, həm də elm və təhsil sahəsində qarşılaşdığımız çətinlikləri müzakirə etmək və gələcəkdə bu sahələrin inkişafını necə irəlilədə biləcəyimizi müəyyən etməkdir. Bu gün bir-birimizdən öyrənək, yeni ideyalarla zənginləşək və elm dünyasında daha böyük töhfələr verək.

Çıxış edən ADPU-nun tədris işləri üzrə prorektoru dosent Eldar Aslanov və sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev konfransın işinə uğurlar arzulayaraq xüsusilə təhsil idarəetmısi və metodikası üzrə magistratura səviyyəsində yüksəksəviyyəli mütəxəssis hazırlığının əhəmiyyətinə toxunublar.

ADPU-nun Magistratura və doktorantura şöbəsinin müdiri, konfransın məsul katibi s.e.ü.f.d. Rəşad Sadıqov ötən illərin statistik məlumatlarını təqdim edərək diqqətə çatdırıb ki, builki konfransda 381 məruzə, o cümlədən 7 müxtəlif ali təhsil müəssisəsindən 54 magistrantın məruzəsi dinləniləcək ki, bu da indiyə qədər əldə olunan ən yüksək nəticədir. Belə ki, ADPU ilə yanaşı Sumqayıt Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Lənkəran Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Mingəçevir Dövlət Universiteti, Xəzər Universiteti, Bakı Qızlar Universitetindən magistrantları, eləcə də, Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində universitetdə təhsil alan Çin vətəndaşı olan magistrantlar da iştirak edirlər.

Daha sonra ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri professor Ramiz Əliyev, İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri professor Fərrux Rüstəmov, Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının müdiri professor Əbülfət Pələngov, Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri professor Müseyib İlyasov çıxış edərək öz təəssüratlarını, magistrantlara olan tövsiyələrini çatdırıblar. Plenar iclasda ADPU-nun magistrantı Bəyim Nəbiyevanın "XXI əsr ali məktəbinin formalaşdırılması strategiyasına bir baxış", BSU-nun magistrantı Rauf Quliyevin "Fənlərüstü inteqrasiyaya yeni yanaşma" mövzularında məruzələri dinlənilib. Konfrans işini "Təhsildə strateji idarəetmə", "İnnovasiyalar və təhsilin keyfiyyəti", "Təhsildə sosial-psixoloji xidmət", "Tədrisin müasir problemləri-1" və "Tədrisin müasir problemləri-2" bölmələri üzrə davam etdirib.

İki gün davam edəcək konfransda 381 məruzə dinləniləcək, müzakirələr aparılacaq. Təşkilat Komitəsinin yekun rəyinə əsasən çapa tövsiyə olunan elmi məruzələr topluya daxil ediləcək və konfrans materiallarında nəşr olunacaq.

“Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri” müsabiqəsi yekunlaşıb







Aprelin 12-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) “Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri” müsabiqəsinin II mövsümünün yarımfinal mərhələsi üzrə test imtahanları keçirilib.

“bp Azərbaycan” şirkətinin sponsorluğu ilə keçirilən və əsas məqsədi universitetin istedadlı tələbələrini aşkar etmək, onların peşəkar inkişafına dəstək göstərərək gələcək kadr bankı formalaşdırmaq olan müsabiqənin yarımfinal mərhələsində əvvəlki mərhələdə uğurlu nəticə göstərən 231 nəfər tələbə iştirak edib. Test imtahanı formasında təşkil edilən yarımfinal mərhələsində tələbələr “İnformasiya ilə iş”, “Məntiqi təfəkkür”, “Mətn üzərində verbal təhlil” və ilk dəfə tətbiq edilən “İdarəetmə” blokları üzrə tapşırıqları cavablandırıblar.

ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev, Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri, İşçi qrupun rəhbəri Turan Kərimli və İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri, layihə rəhbəri Taleh Mirzəyev imtahanların gedişini izləyib və tələbələrə uğurlar arzu ediblər.

Bu mərhələdə iştirakçılar "İnformasiya ilə iş", "Məntiqi təfəkkür", "İdarəetmə bacarıqları" və “Mətn üzərində verbal təhlil” blokları üzrə ümumilikdə 100 test tapşırığını cavablandırıblar. Ümumi nəticələrə əsasən yarımfinalda iştirak edən 231 tələbədən 98-i finala keçmək hüququ əldə edib. Yarımfinal üzrə ən yüksək nəticə göstərən iştirakçı mümkün 100 baldan 79 bal toplayıb. Mərhələ üzrə minimal keçid balı isə 60 bal olub.

Final mərhələsinə vəsiqə qazanan tələbələrlə universitet rəhbərliyi arasında görüş keçirilib.

Görüşdən əvvəl final mərhələsinin püşkatması keçirilib və finalçıların komanda bölgüləri müəyyən edilib. Final mərhələsinə vəsiqə qazanan 105 iştirakçı finalda 17 komanda daxilində qələbə üçün yarışacağı bəlli olub. Püşkatmanın ardınca layihə rəhbəri, ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyev finalın sturukturu, qaydaları və nəzərdə tutulan tapşırıq modelləri barədə məlumat verib. Həmçinin, iştrakçılara kollektiv müzakirələrdə liderlik və situasiyanın düzgün idarə edilməsi barədə qısa təlim keçirilib. Daha sonra ADPU-nun rektoru, müsabiqənin Təşkilat Komitəsinin sədri professor Cəfər Cəfərovun finalçılarla səmimi görüşü keçirilib. Görüşdə, həmçinin ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru, müsabiqənin Təşkilat Komitəsinin üzvü prof. Fikrət Rzayev və Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri, layihənin İşçi Qrupunun rəhbəri Turan Kərimli də iştirak edib.

Prof. Cəfər Cəfərov qeyd edib ki, təhsil idarəçiliyi sahəsində innovativ və yenilikçi təcrübələrə daim açıq olan Pedaqoji Universitet gənclərin potensial lider və təhsil idarəedicisi kimi formalaşmasına xidmət edən təşəbbüsləri hər zaman dəstəkləyir. Bu təşəbbüslərin ən vaciblərindən olan “Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri” müsabiqəsinin istedadlı tələbələrin potensiallarının aşkarlanması və onların kadr bankına əlavə olunmaları, mentorluq proqramına cəlb olunaraq inkişaflarına dəstək göstərilməsi məqsədini daşığını bildirən rektor ötən ildən keçirilməyə başlayan müsabiqənin ali təhsil müəssisələri arasında bir ilk olduğunu vurğulayıb. Rektor bildirib ki, müasir dövrdə təhsil sahəsi dinamik və çevik idarəedicilərə ehtiyac duyur. Qlobal trendlər, rəqəmsallaşma, yeni təlim yanaşmaları və inklüziv təhsil kimi məsələlər idarəçilikdə yeni liderlik modellərinin formalaşmasını tələb edir. Bu baxımdan "Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri" müsabiqəsi tələbələr arasında liderlik keyfiyyətlərinin inkişaf etdirilməsi, strateji düşüncə, operativ qərarvermə və komanda işi bacarıqlarının artırılması üçün xüsusi əhəmiyyət daşıyır. O bildirib ki, burada əldə edilən təcrübə gələcəkdə məzunların əmək bazarında daha rəqabətli olmasına, idarəetmə strukturlarında uğurla yer almalarına və ümumilikdə təhsilimizə yeni nəfəs gətirmələrinə şərait yaradacaq. Bu prosesdə məqsəd yalnız qalibləri müəyyən etmək deyil, həm də bütün iştirakçıları inkişaf etdirmək, onlara təhsildə lider olmağın əsas bacarıqlarını qazandırmaqdır. Rektor tələbələrə uğurlar arzulayıb, onlardan təşəbbüskar, yenilikçi və məsuliyyətli olmalarını, qarşılarına qoyduqları məqsədlərə inamla irəliləmələrini tövsiyə edib. Görüşün davamında iştirakçılar fikir və təəssüratlarını bölüşüblər və onları maraqlanadıran sualları ünvanlayıblar.

Gün ərzində, həmçinin tanışlıq və ünsiyyət formalaşdırmaq və effektiv komanda dinamikası yaratmaq məqsədilə “Nə? Harada? Nə zaman?” formatlı intellektual oyun təşkil edilib. Sosial və humanitar məsələlər üzrə prorektor professor Fikrət Rzayev yarışmanı izləyib. Oyun maraqlı mübarizə şəraitində keçib.

Finalçılar üçün təlim – “Layihələrin hazırlanması və idarə olunması”

Mayın 4-də “Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri” müsabiqəsinin II mövsümünün finalçıları üçün “Layihələrin hazırlanması və idarə olunması” mövzusunda təlim təşkil olunub. Pedaqoji Universitetin tədris işləri üzrə prorektoru, layihələrin idarə olunması üzrə mütəxəssis, dosent Eldar Alsanovun təqdimatında “MS Teams” platforması üzərində onlayn qaydada təçkil olunan təlimin məqsədi müsabiqənin finalçılarına layihə idarə olunması sahəsində zəruri nəzəri və praktik dəstək göstərmək və onların peşəkar inkişaflarını dəstəkləməkdir.

Təlimdə layihə ideyasının formalaşdırılması, layihənin yazılmasının əsas mərhələləri, davamlılıq, monitorinq, büdcə və s. əsas məqamlara toxunulub, iştirakçıların sualları cavablandırılıb.

Final

Mayın 9-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) “Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri” müsabiqəsinin II mövsümünün final mərhələsi keçirilib.

“bp Azərbaycan” şirkətinin sponsorluğu ilə keçirilən, əsas məqsədi universitetin istedadlı tələbələrini aşkar etmək, onların peşəkar inkişafına dəstək göstərərək gələcək kadr bankı formalaşdırmaq olan müsabiqənin finalında yarımfinal mərhələsində uğur qazanaraq finala vəsiqə qazanmış 105 nəfərdən 102-si iştirak edib. Komandalar daxilində qiymətləndirmə konfransları formatında təşkil edilən final mərhələsində iştirakçıların kommunikasiya və komanda ilə iş, liderlik, sosial məsuliyyət, effektiv və strateji düşüncə, nəticəyə yönəlmə, dəyişikliklərin idarə edilməsi və layihə idarəetməsi kimi bacarıqlarını qiymətləndirən müxtəlif keyslər təqdim olunub.

Rektor professor Cəfər Cəfərov və ADPU-nun qonağı olan Türkiyənin Atatürk Universitetinin eks-rektoru, Üsküdar Universitetinin rektor köməkçisi professor Hikmət Koçak müsabiqə iştirakçılarına uğurlar arzulayıb, öz tövsiyələrini səsləndirərək, bu təşəbbüsün tələbəlik dövründən peşəkar idarəetmə təcrübəsi qazanmaqda gənclər üçün unikal fürsət yaratdığını qeyd ediblər.

Keyslərdə hazırda müxtəlif sektorlarda uğurlu fəaliyyət göstərən ADPU məzunları və əməkdaşlarından ibarət ekspertlər tərəfindən meyarlar üzrə iştirakçıların bacarıqları qiymətləndirilib. Layihə təqdimatı hissəsində isə münsiflər heyəti komandaların təhsilin inkişafı, ekologiya, rəqəmsallaşma kimi istiqamətlərdə hazırladıqları layihə təkliflərini dəyərləndiriblər. Münsiflər heyətində ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov, sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev, rektorun müşaviri Ümid Mehdiyev, Pedaqoji Kollecin direktoru dosent İsrayıl İsgəndərov, Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri Turan Kərimli, eləcə də universitetin məzunları – Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin Məktəbəqədər təhsil layihələri departamentinin müdiri, layihə meneceri, ADPU-nun SABAH qruplarının müəllimi Orxan Cəfərov və “Edumap” təhsil portalının təsisçisi Rasim Abdurahmanov təmsil olunublar.

Mayın 22-də Azəbaycan Dövlət Pedaqoji Universitetində “Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri” müsabiqəsinin II mövsümünün rəsmi bağlanış və mükafatlandırma mərasimi keçirilib. Bağlanış mərasimində dövlət rəsmiləri, Pedaqoji Universitetin rəhbərliyi, təhsil ictimaiyyətinin nümayəndələri, KİV təmsilçilləri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru, müsabiqənin Təşkilat Komitəsinin sədri professor Cəfər Cəfərov qeyd edib ki, əsas məqsədi universitetin istedadlı və liderlik bacarığı olan tələbələrini seçmək, onların peşəkar inkişafına dəstək olmaq və tələbələr arasından potensial kadr bankını formalaşdırmaq olan, ali təhsil müəssisələri arasında ilk dəfə ADPU-da keçirilən “Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri” müsabiqəsi artıq bir ənənəyə çevrilib. İkinci mövsümünü geridə qoyan müsabiqədə iştirakçılar yalnız nəzəri biliklərini deyil, həm də öz liderlik keyfiyyətlərini, innovativ yanaşmalarını və sosial məsuliyyətlərini nümayiş etdirmək fürsəti əldə ediblər. Müsabiqənin builki 10 qalibi böyük rəqabət mühitində uğur qazanaraq, hər biri 1000 manat məbləğində pul mükafatı, müxtəlif hədiyyələr və ən önəmlisi – Təşkilat Komitəsi tərəfindən təyin olunan mentorlarla 1 illik peşəkar inkişaf proqramında iştirak hüququ əldə ediblər. Eyni zamanda, müsabiqənin I mövsümünün qalibi olan 15 tələbə artıq mentorluq proqramını uğurla tamamlayıb. Pedaqoji Universitetin hər zaman gənclərin hərtərəfli inkişafına xidmət edən layihələri dəstəklədiyini vurğulayan rektor müsabiqənin davamlı olacağına ümid etdiyini qeyd edib.

Layihə rəhbəri, ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyev təqdimat edərək, ümumilikdə qeydiyyat və 3 mərhələdən ibarət olan müsabiqənin II mövsümünə qeydiyyatdan keçən 800-dək tələbədən 650 nəfərə qədərinin müsabiqədə iştirak hüququ qazandığını vurğulayıb. Martın 15-də onlardan 400 nəfərdən çoxunun iştirak etdiyi I mərhələ üzrə imtahanlarda iştirakçıların ümumi dünyagörüşünü yoxlayan suallar təqdim olunub. II mərhələ olan yarımfinalda əvvəlki mərhələdə uğurlu nəticə göstərən 231 nəfər iştirak edib. Aprelin 12-də təşkil edilən yarımfinalda tələbələr “İnformasiya ilə iş”, “Məntiqi təfəkkür”, “Mətn üzərində verbal təhlil” və ilk dəfə tətbiq edilən “İdarəetmə” blokları üzrə tapşırıqları cavablandırıblar. Müsabiqənin mayın 9-da keçirilən final mərhələsində isə yarımfinalda uğur qazanaraq finala vəsiqə qazanmış 105 nəfər iştirak edib. Komandalar daxilində qiymətləndirmə konfransları formatında təşkil edilən finalda iştirakçıların kommunikasiya və komanda ilə iş, liderlik, sosial məsuliyyət, effektiv və strateji düşüncə, nəticəyə yönəlmə, dəyişikliklərin idarə edilməsi və layihə idarəetməsi kimi bacarıqlarını qiymətləndirən müxtəlif keyslər təqdim olunub.

Tədbirin rəsmi hissəsində çıxış edən Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini Firudin Qurbanov layihəni yüksək qiymətləndirərək, belə təşəbbüslərin təhsildə strateji liderlik mədəniyyətinin formalaşdırılmasında vacib rol oynadığını bildirib. Müasir dövrdə təhsilin idarəolunması sahəsində yenilikçi düşüncəyə, strateji yanaşmaya malik, liderlik xüsusiyyətləri və sosial istedadları güclü olan kadrların hazırlanmasının zəruriliyini vurğulayan nazir müavini müsabiqənin bu baxımdan əhəmiyyətinə toxunub.

Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev isə çıxışında ADPU-da belə bir təşəbbüsün həyata keçirilməsini müsbət hal kimi dəyərləndirib. F.Hacıyev “Yüksəliş” müsabiqəsinin bu kimi müsabiqələrə dəstək göstərməyə hazır olduğunu diqqətə çatdırıb.

Müsabiqənin baş sponsoru olan “bp” şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışında bildirib ki, “bp” təhsilə və gənclərin inkişafına dəstək göstərməyi öz korporativ sosial məsuliyyət strategiyasının əsas istiqamətlərindən biri hesab edir. B.Aslanbəyli ADPU-nun “bp” şirkətinin vacib tərəfdaşlarından biri olduğunu və bu cür innovativ layihələrdə əməkdaşlığın davamlı olacağını qeyd edib. Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədrinin müşaviri Aliyə Əliyeva çıxışında ali təhsil müəssisələrinin belə təşəbbüslərlə tələbələrin qeyri-formal bacarıqlarını inkişaf etdirməsinin olduqca müsbət bir tendensiya olduğunu vurğulayıb.

Rəsmi hissəsindən sonra müsabiqənin cari mövsümünün 10 qalibi, müsabiqənin İşçi qrupunun üzvləri, ekspertləri və ötən ilin qalibi olaraq mentorluq proqramını uğurla tamamlayan tələbə və məzunlar mükafatlandırılıblar.

Tədbir universitet daxilində fəaliyyət göstərən tələbə təşkilatlarının aktiv tələbələrinin iştirakı ilə hazırlanan bədii hissə ilə yekunlaşıb. Bədii hissədə, həmçinin müsabiqənin qaliblərindən olan Gülay İmanzadənin pianoda ifası xüsusi rəğbətlə qarşılanıb.

Qeyd edək ki, müsabiqə "bp" şirkətinin baş sponsorluğu və ADPU Gənc Məzunlar Assosiasiyasının dəstəyi ilə həyata keçirilib.

ADPU-nun Corc Vaşinqton Universiteti ilə ikili diplom proqramının IV məzun buraxılışı



Mayın 29-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Amerika Birləşmiş Ştatlarının (ABŞ) nüfuzlu universitetlərindən Corc Vaşinqton Universiteti (CVU) ilə birgə ikili diplom magistr proqramının dördüncü məzun buraxılışı keçirilib. Mərasimdə Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, bp şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, CVU-nun Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Maykl Foyer və məktəbin professoru Kolin Qrin, habelə Elm və Təhsil Nazirliyinin və Dövlət Neft Fondunun məsul əməkdaşları, ADPU və Corc Vaşinqton Universitetinin nümayəndələri və proqramın məzunları iştirak ediblər.

Mərasim təntənəli məzun himninin sədaları altında universitet bayraqlarının zala gətirilməsi və proqramın müəllim və tələbələrinin zala daxil olması ilə start götürüb.

Açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov məzunları təbrik edib və onlara uğurlar arzulayıb. Rektor çıxışında qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan ali təhsilinin rəqabət qabiliyyətliliyinin artırılması üzrə 2019-2023-cü illər üzrə Dövlət Proqramı" əsasında icra edilən və Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə ABŞ-nin Corc Vaşinqton Universiteti arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən Təhsil siyasəti və idarəetməsi ixtisası üzrə ikili diplom magistr proqramının builki məzunlarının sayı 37 nəfərdir. İlk dəfə 2020-ci ildə qəbul aparılan proqram üzrə əvvəlki 3 il ərzində 83 nəfər məzun olub və builki məzunlarla birgə ümumi məzun sayı 120 nəfərə çatır. Bu proqramın ölkəmizin təhsil sistemində mühüm bir yeniliyin təməlini qoyduğunu və Azərbaycan ilə ABŞ arasında akademik əlaqələrin inkişafı, təhsil sahəsində mübadilə və əməkdaşlıq imkanlarının genişləndirilməsi gələcəyin təhsil liderlərini hazırlamaq məqsədi daşıdığını bildirən prof. C.Cəfərov məzunların proqram sayəsində əldə etdikləri bilik və bacarıqların Azərbaycan təhsil sisteminin inkişafında böyük rol oynayacağına əminlik ifadə edib.

Daha sonra çıxış edən Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Maykl Foyer proqramın uğurlarından bəhs edərək qeyd edib ki, Azərbaycan və ABŞ arasında təhsil əməkdaşlığı artıq strateji mahiyyət daşıyır və bu cür akademik tərəfdaşlıqlar beynəlxalq elmi mübadilənin inkişafına töhfə verir.

Tədbirdə iştirak edən elm və təhsil naziri Emin Əmrullayev çıxışında proqramın dövlət təhsil siyasətindəki yerini xüsusi qeyd edib. Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin təsdiqlədiyi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində bir neçə ikili diplom proqramı həyata keçirilir və bu proqramların artıq ciddi müsbət təsirləri müşahidə olunur. Bu proqramlardan mindən çox şəxs artıq məzun olub və onlar həm şəxsi inkişaf, həm də ölkənin gələcəyi üçün ciddi töhfə vermək imkanı qazanıblar.

Emin Əmrullayev çıxışında Dövlət Neft Fonduna da təşəkkürünü çatdıraraq bildirib ki, bu təşəbbüslər Azərbaycanın uzun illər inkişafına böyük töhfə vermiş neft gəlirlərinin insan sərvətinə, yəni "qara qızılın insan qızılına çevrilməsi" konsepsiyası çərçivəsində görülən işlərin bariz nümunəsidir. Nazir məzunların iki müxtəlif təhsil sisteminin bilik və təcrübəsini birləşdirərək müasir idarəetmə və tədris modellərinin yerli təhsil sistemində tətbiqinə töhfə verəcəklərini bildirib.

Sonda "Təhsil siyasəti və idarəetməsi" üzrə ADPU-CVU birgə ikili diplom magistr proqramının 2023/2024-cü tədris ilinin məzunlarına fəxri diplomlar təqdim olunub.

Rəsmi mərasim ümumi xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb. Xatırladaq ki, ikili diplom proqramı Elm və Təhsil Nazirliyi, Dövlət Neft Fondu və Dövlət Proqramı İdarəetmə Qrupunun dəstəyi ilə həyata keçirilir.

Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetinin müəllimləri ADPU-da mobillikdə iştirak ediblər



Aprelin 1-dən etibarən Yessenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetinin müəllimləri Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) əməkdaşlıq müqaviləsi çərçivəsində mobillikdə iştirak başlayıblar. Səfər çərçivəsində Pedaqogika kafedrasının baş müəllimi Manet Janqoziyeva və professoru Zaini Kokşeyeva ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Günay Məhərrəmova ilə görüşərək universitetlərarası əməkdaşlıq, tədris və elmi-tədqiqat sahələrində mümkün inkişaf perspektivləri haqqında müzakirələr aparıblar. Daha sonra onlar İbtidai təhsil və Məktəbəqədər təhsil fakültələrinə səfər edərək fakültə rəhbərliyi və müəllim heyəti ilə fikir mübadiləsi aparmışlar. Görüşdə pedaqoji təcrübə, tədris metodikası və tələbə mübadilə proqramları ilə bağlı məsələlərə toxunulub. Aprelin 2-də isə Yessenov adına universitetin müəllimləri ADPU-nun Təlim-Tədris Mərkəzində olmuş, burada müasir tədris yanaşmaları və pedaqoji innovasiyalar haqqında təqdimat və müzakirələrdə iştirak etmişlər.

Mobillik proqramının yekununda müəllimlər ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova ilə ikitərəfli akademik əlaqələrin möhkəmləndirilməsi, elmi tədqiqatların birgə aparılması və gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Sonda professor Mahirə Hüseynova qonaq müəllimləri sertifikatlarla təltif edib.

Akademik heyət üçün "Web of Science" alətləri haqqında təlim keçirilib



Aprelin 15-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kitabxana-İnformasiya Mərkəzi və ADPU Gənc Alimlər və Tədqiqatçılar Şurasının birgə təşkilatçılığı ilə növbəti təlim keçirilib. Təlimdə universitetin müxtəlif fakültələrini təmsil edən 120-yə yaxın gənc alim və tədqiqatçı və professor-müəllim heyəti iştirak edib.

Təlimi giriş sözü ilə açan ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov qeyd edib ki, respublikamızda elm və təhsil sahəsində aparılan islahatlar ADPU-da da uğurla davam etdirilir. Gənc alim və tədqiqatçıların elmi potensialının artırılması istiqamətində mühüm işlər görülür. Hesab edirəm ki, Universitet Elmi Şurasının qərarı ilə 2017-ci ildə yaradılmış Gənc Alimlər və Tədqiqatçılar Şurasının fəaliyyəti ADPU-da və onun filiallarında çalışan və təhsil alan gənc alim və tədqiqatçıların elmi fəaliyyətlərinin təşkili və əlaqələndirilməsinə yardım etmək, onların yaradıcı elmi və innovasiya fəaliyyətlərini inkişaf etdirmək istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Prorektor bildirib ki, dünyanın yüksək reytinqli jurnallarında – "Web of Science", "Scopus" bazalarına daxil olan yüksək impakt faktor göstəricili dövri-elmi jurnallarda dərc edilmiş məqalələrə görə universitetin professor-müəllim heyətinin 2024-cü ildən başlayaraq rəğbətləndilməsi həyata keçirilir. Bundan başqa, mütəmadi olaraq yerli və xarici mütəxəsislər tərəfindən universitet əməkdaşları, doktorant və magistrantlar üçün təlimlər təşkil edilir.

Daha sonra təlimçi, "Clarivate" şirkətinin Azərbaycan üzrə nümayəndəsi İltifat İbrahimov "Web of Science" plaformasi haqqında təqdimat edib və "Research Assistant" süni intellekt aləti, "Journal Citation Reports" hesabat platforması, "Master Journal List" jurnal platforması, təşkilat profili və tədqiqatçı profilləri, eləcə də "EndNote" referans idarəetmə sistemi haqqında iştirakçılara ətraflı məlumat verib.

Təlimin sonunda iştirakçıların sualları cavablandırılıb və təkliflər müzakirə olunub.

"ADPU-2030" Strateji İnkişaf Planı və ADPU-nun siyasət sənədləri ictimaiyyətə təqdim olundu




Azərbaycan Dövlət Pedaqoji Universitetin Elmi Şurasının 4 fevral 2025-ci il tarixli qərarına əsasən qəbul olunan "ADPU-2030" Strateji İnkişaf Planı və planla bağlı əsas 7 strateji sahə üzrə siyasət sənədi ("ADPU-nun Təlim-Tədris Siyasəti", ADPU-nun Keyfiyyət Təminatı Siyasəti", "ADPU-nun Elmi-Tədqiqat Siyasəti", "ADPU-nun Dayanıqlı İnkişaf Siyasəti", "ADPU-nun Beynəlmiləlləşmə Siyasəti", "ADPU-nun İnklüziv Təhsil Siyasəti", "ADPU-nun Sosial Məsuliyyətlilik Siyasəti") universitetin rəsmi saytında yayımlanaraq ictimaiyyətə təqdim olunub.

"ADPU-2030" Strateji İnkişaf Planı 2030-cu ildə sahə ali təhsil müəssisəsindən klassik universitetə transformasiya olunacaq ADPU-nu yüksək keyfiyyətli ali təhsil verən, müasir tədqiqatlar aparan, sosial məsuliyyətlilik nümayiş etdirən, əmək bazarı ilə səmərəli əlaqələr quran, yaxşı idarəetmə sisteminə sahib olan, rəqəmsallaşmanı təmin etmiş, beynəlmiləlləşmiş və yüksək beynəlxalq reytinqli 4-cü nəsil universitetə çevirməyi nəzərdə tutur. Pedaqoji Universitet bu strategiya sənədində nəzərdə tutulan 6 strateji məqsəd və 34 strateji hədəfin reallaşdırılması ilə 2030-cu ildə sosial elmlər sahəsində dünyanın ən yaxşı 1000 universiteti sırasına daxil olmağı hədəfləyir. ADPU-nun artan potensialı, ölkəmizin günü-gündən inkişaf edən və güclənən beynəlxalq nüfuzu bu vizyonu müəyyən edən əsas amillərdir.

Qeyd edək ki, indiyədək ADPU-nun 2015-2020-ci illəri əhatə edən "ADPU-2020" və 2018-2021-ci illəri əhatə edən "ADPU-2021" strateji inkişaf planları qəbul olunaraq icra olunub. ADPU-nun Elmi Şurası 14 sentyabr 2022-ci ildə "ADPU-2030" Strateji İnkişaf Planının hazırlanması üzrə İşçi Qrupun yaradılması ilə bağlı qərar qəbul edib. 2021/2022-ci tədris ilinin pandemiya şəraitində davam etməsi, 2020-ci ildə zəfərlə yekunlaşmış Vətən müharibəsi və onun nəticələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 avqust 2022-ci il tarixli 302 №-li Qərarına əsasən Azərbaycan Dövlət Pedaqoji Universitetinin yeni nizamnaməsinin təsdiq edilməsi, ona publik hüquqi şəxs statusu verilməsi, Böyük Qayıdışa dair I Dövlət Proqramı, universitetin 2023-cü ilin aprelində institusional akkreditasiya olunması, 2023-cü ildə maliyyə yoxlamasından keməsi kimi məsələlərlə bağlı proses 2023-ci ilinin sonunadək uzanıb. Bu çərçivədə 31 oktyabr 2023-cü ildə şərti olaraq əsas istiqamətlər üzrə "İnnovativ tədris, öyrənmə və qiymətləndirmə üsulları", "Elmi-tədqiqat", "Beynəlmiləlləşdirmə", "Tələbəmərkəzli yanaşma", "Əmək bazarı ilə əlaqə", "Daxili keyfiyyət təminatı" və "İnfrastruktur və rəqəmsallaşma" işçi qrupları yaradılıb. İşçi qruplar əvvəlki nəticələri,

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i, Azərbaycan Respublikasının "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi", Azərbaycan Respublikasinin işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I Dövlət Proqramı, 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı və digər milli sənədləri diqqətlə araşdırmışdır. O cümlədən, Türk Dövlətləri Təşkilatının "Türk Dünyası 2040 Vizyonu" strategiya sənədi, BMT-nin "Transforming our world: the 2030 Agenda for Sustainable Development" (Dünyamızı dəyişdirmək: Davamlı İnkişaf üçün 2030 Gündəliyi) sənədini, UNESCO-nun 2021-ci ildə qəbul etdiyi "Reimagining Our Futures together. A new social contract for education" (Gələcəklərimizi birlikdə yenidən təsəvvür edirik. Təhsil üçün yeni sosial müqavilə) hesabatını və "Education for Sustainable Development Goals" 2030 sənədini, OECD-nin "The future of education and skills Education 2030 Learning Objectives" və "Education at a Glance 2023 OECD Indicators" (Bir baxışda təhsil) sənədini, Avropa İttifaqı Komissiyasının "European Framework for the Digital Competence of Educators" (DigCompEdu) və "Digital Education Action Plan" sənədini, Avropa Parlamentinin "The European Education Area and the 2030 strategic framework for education and training" sənədini, Avropa Universitetlər Birliyinin "Universities without walls A vision for 2030" starteji sənədini, Avropa İttifaqının "Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG)" (Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG)) sənədini tədqiq edərək ADPU-nun son akkreditasiya arayışını, ADPU-da aparılmış daxili tədqiqatları, tələbə, məzun və müəllimlərlə sorğularının nəticələrini, yerli və beynəlxalq sənədləri ümumiləşdirməklə "ADPU-2030" SİP-nin sənəd layihəsini hazırlayıblar. SİP universitet daxilində bütün strukturlar, müəllimlər və tələbə təşkilatları üçün 2 ay müddətində daxili müzakirəyə çıxarılıb, onlarla rəy və təklif alınıb. Həmçinin, ADPU-dan kənar yerli və xarici ekspertlərə rəyə göndərilmiş, alınmış rəylər əsasında yekun sənəd 4 fevral 2025-ci il tarixində universitetin Elmi Şurasında təsdiq edilib.

Tələbələrimiz Avrasiya Robot Olimpiadasında qalib olublar



16-20 aprel tarixlərində Türkiyə Respublikasının Antalya şəhərində "Fibonacci Beynəlxalq Robot Olimpiadası"nın Avrasiya çempionatının yarımfinal mərhələsi keçirilib. Yarışmada dünyanın 24 ölkəsindən 21 fərqli kateqoriya üzrə 580-dən çox komanda, 3000-dən artıq iştirakçı qələbə uğrunda mübarizə aparıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tələbələri yarışmada Riyaziyyat fakültəsinin Kompüter elmləri kafedrasının və Fizika fakültəsinin STEAM Mərkəzinin müəllimi Xumarə Qəhrəmanlının mentorluğu ilə 5 kateqoriyada iştirak edərək uğurlu nəticə əldə ediblər. "FireteKh", "Smart Girls" və "RoadteKh" komandaları müvafiq olaraq, "RoboTech Entrepreneurship", "Girls Triathlon" və "Autonomous Car" kateqoriyaları üzrə I, "LifeteKh" və "Trackmasters" komandaları isə "HealthTech Entrepreneurship" və "MBot Line Following" kateqotiyaları üzrə II yerə çıxıblar.

Çempionatın qalibi olan komandalar İtalyada keçiriləcək "Fibonacci Beynəlxalq Robot Olimpiadası"nın final mərhələsində iştirak hüququ qazanıblar.

Qeyd edək ki, İtalyada əsası qoyulan "Fibonacci Beynəlxalq Robot Olimpiadası" dünyanın ən böyük robot olimpiadası hesab edilir.

Kimya və biologiya fakültəsinin təşəbbüsü ilə ağacəkmə aksiyası keçirilib



Aprelin 21-də Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu arasında imzalanmış əməkdaşlıq memorandumun fəaliyyət planına əsasən Dendrologiya İnstitutunun Saray qəsəbəsində yerləşən təcrübə sahəsində ağacəkmə aksiyası keçirilib. Ağacəkmə aksiyasında ADPU-nun rektoru professor Cəfər Cəfərov, Dendrologiya İnstitutunun baş direktoru dosent Minarə Həsənova, ADPU-nun Kimya və biologiya fakültəsinin dekanı dosent Reyhan Ağayeva, dekan müavini Bəsti Əsədova, fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

ADPU-da "Süleyman Sani Axundov – 150" Respublika elmi-praktik konfransı keçirilib



Aprelin 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Filologiya fakültəsinin təşkilatçılığı ilə Azərbaycan maarifçi-realist ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, pedaqoq və ictimai xadim Süleyman Sani Axundovun anadan olmasının 150 illik yubileyinə həsr olunmuş "Süleyman Sani Axundov - 150" Respublika elmi-praktik konfransı keçirilib. Konfransın açılışında ADPU-nun və Filologiya fakültəsinin rəhbərliyi və fakültənin professor-müəllim heyəti, eləcə də digər ali təhsil və elmi-tədqiqat müəssisələrinin alimləri iştirak ediblər. Ədibin çoxşaxəli yaradıcılığını və maarifçilik ideyalarını müasir elmi kontekstdə müzakirə etmək məqsədi daşıyan konfransın plenar iclasında çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov Süleyman Sani Axundovun Azərbaycan ədəbiyyatında və maarifçiliyində tutduğu mövqedən bəhs edərək onun ideyalarının bu gün də öz aktuallığını qoruduğunu vurğulayıb. Rektor çıxışında qeyd edib ki, Axundovun əsərlərində təhsilin, əxlaqın və vətənpərvərliyin təbliği gələcək nəsillər üçün mühüm örnəkdir.

Çıxış edən Pedaqoji Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova konfransın əhəmiyyətini qeyd edib və bu cür elmi tədbirlərin maarifçi ədiblərin irsinin gənc nəsillərə çatdırılması baxımından mühüm rol oynadığını bildirib.

Plenar iclasda ADPU-nun professoru Yaqub Babayev "Azərbaycan maarifçi-realist nəsrinin inkişafında Süleyman Sani Axundovun rolu" mövzusunda, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, dosent Aygün Bağırlı isə "Süleyman Sani Axundovun ədəbi kimliyi: tarix və müasirlik kontekstində" mövzusunda məruzə ediblər.

Konfransda eyni zamanda akademik Muxtar İmanov (ADU), professor Təyyar Salamoğlu (ADPU) və dosent Qüdrət Umudov (ADPU) da çıxış edərək Axundovun yaradıcı irsi ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra konfrans öz işini paralel bölmə iclasları ilə davam etdirib. "S.S.Axundovun uşaq nəsri", "S.S.Axundovun dramaturgiyası" və "S.S.Axundovun dili və pedaqoji görüşləri" adlı bölmələrdə ədibin yaradıcılığı və pedaqoji baxışları müxtəlif istiqamətlərdə ətraflı şəkildə müzakirə olunub.

Bölmələrdə təqdim edilən məruzələrdə Süleyman Sani Axundovun uşaq ədəbiyyatına verdiyi töhfələr, dramaturgiya sahəsindəki yenilikləri, həmçinin müəllim və pedaqoq kimi irəli sürdüyü maarifçi ideyalar tədqiq olunub.

Konfrans, Süleyman Sani Axundovun zəngin ədəbi-pedaqoji irsinin tədqiqinə və təbliğinə xidmət etməklə yanaşı, onun ideyalarının bu gün də aktuallığını bir daha ortaya qoyur.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri ADPU tələbələri ilə görüşüblər



Aprelin 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Azərbaycan Gənclər Təşkilatları Milli Şurası (NAYORA) və Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqının (ATGTİ) birgə təşkilatçılığı ilə Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın tələbələrlə görüşü keçirilib. Tədbirin əsas məqsədi ali təhsil müəssisələrində tələbələrlə birbaşa dialoqun qurulması, onların təhsil prosesində daha fəal iştirakının təşviqi, tələbələrin inkişafına dəstək və təhsil mühitinə dair təkliflərin dinlənilməsi olub.

Tədbirdən əvvəl ADPU-nun rektoru professor Cəfər Cəfərov qonaqlar - Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Hikmət Əlizadə, Şuranın sədr müavini Pərvanə Məmmədova və üzvləri Günay Əkbərova, Rasif Dünyamalıyev və Heydər Eminli ilə görüşüb. Görüşdə ali təhsildə idarəetmə, tədrisin keyfiyyəti və tələbələrin sosial-ictimai aktivliklərinin artırılması istiqamətində aparılan işlər barədə fikir mübadiləsi aparıb.



Daha sonra 400-ə yaxın tələbənin iştirakı ilə panel görüş keçirilib. ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev çıxış edərək görüşün əhəmiyyəti barədə söz açıb.

Çıxış edən İctimai Şuranın sədri Hikmət Əlizadə və şuranın üzvləri tələbələrə təhsildə ictimai nəzarətin əhəmiyyəti, tələbələrlə açıq dialoqun rolu, şəxsi inkişaf, yumşaq bacarıqların təkmilləşdirilməsinin əhəmiyyəti barədə məlumat veriblər. Çıxışçılar tələbələrə yalnız akademik biliklərlə məhdudlaşmamaq və özünüifadə, liderlik, ünsiyyət və komandada işləmək kimi bacarıqlarının inkişaf etdirilməsi barədə tövsiyyələrini veriblər. Panel görüş tələbələrlə fəal diskussiya və qarşılıqlı fikir mübadiləsi ilə davam edib.

Xarəzm Vilayəti Pedaqoji Ustalıq Mərkəzi ilə əməkdaşlıq müqaviləsi imzalanıb



Aprelin 23-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Özbəkistan Respublikasının Xarəzm Vilayəti Pedaqoji Ustalıq Mərkəzinin direktoru dosent Jasurbek Salayev, direktor müavini dosent Muzaffar Matnazarov və tədris məsələləri üzrə şöbə müdiri Jumaniyaz Artikovdan ibarət heyətlə ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova arasında görüş keçirilib.

Təhsil sahəsində əməkdaşlığı gücləndirmək və təcrübə mübadiləsi aparmaq olan görüşdə, hər iki tərəfin təhsil sistemindəki yeniliklər, tədris metodları və pedaqoji ustalıq məsələləri müzakirə edilib. Həmçinin, qarşılıqlı təlim-tədris proqramlarının təşkil olunması, tələbə mübadiləsi və birgə elmi tədqiqatların aparılması kimi bir sıra önəmli məsələlərə toxunulub.

Görüşün sonunda Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə Xarəzm Vilayəti Pedaqoji Ustalıq Mərkəzi arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Bu müqavilə, təhsil sahəsindəki əlaqələrin möhkəmləndirilməsinə və hər iki tərəfin təhsil sistemlərinin inkişafına töhfə verəcək.

"Qədim yurd yerlərimiz, söykökümüz - Aşıq Ələsgər" - ADPU-da bədii tədbir



Aprelin 24-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Beynəlxalq əlaqələr üzrə prorektorluğunun nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi və Filologiya fakültəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Qədim yurd yerlərimiz, söykökümüz – Aşıq Ələsgər" adlı tədbir keçirilib. Tədbirdə millət vəkilləri, tanınmış ziyalılar, universitetin professor-müəllim heyəti və tələbələri iştirak ediblər. Açılış nitqi ilə çıxış edən Filologiya fakültəsinin dekanı dosent Könül Həsənova çıxış edərək tədbir iştirakçılarını salamlayıb və tədbirin Qərbi Azərbaycan ruhunda, Aşıq Ələsgər nəfəsində keçirildiyini vurğulayıb.

ADPU-nun rektoru professor Cəfər Cəfərov çıxışında Aşıq Ələsgərin irsini təkcə poeziya deyil, milli yaddaşın bir daşıyıcısı kimi qiymətləndirib. Rektor bildirib ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti milli irsə sadiq qalaraq gənclərin milli-mənəvi dəyərlər ruhunda yetişdirilməsini daim diqqətdə saxlayır.

Beynəlxalq əlaqələr üzrə prorektor professor Mahirə Hüseynova Aşıq Ələsgərin təkcə böyük söz ustadı deyil, həm də Qərbi Azərbaycanın yaddaşını, dərdini, sevincini, torpaq həsrətini sazı ilə, sözü ilə bir millətin ruhuna hopduran milli kimlik rəmzi olduğunu qeyd edib.

Sonra Filologiya fakültəsinin Ədəbiyyat kafedrasının professoru Mahmud Allahmanlı "Aşıq Ələsgər lirikasının ideya və məzmun xüsusiyyətləri", kafedranın dosenti Qüdrət Umudov isə "Aşıq Ələsgər irsinin nəşri və tədqiqi tarixindən" mövzusunda məruzələrlə çıxış ediblər.

Çıxış edənlərdən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli, Milli Məclisin deputatı Qaya Məmmədov, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya Komitəsinin sədri Sadiq Qurbanov, "Dədə Ələsgər" İctimai Birliyinin sədri Xətai Ələsgərli Aşıq Ələsgərin təkcə bir aşıq deyil, həm də milli ruhun, azərbaycançılıq düşüncəsinin canlı daşıyıcısı olduğunu xüsusi vurğulayıblar.

Tədbirin bədii hissəsində ADPU-nun hazırlıq kurslarında təhsil alan əcnəbi tələbələr professor Mahirə Nağıqızının "Mənim çəkmələrim" hekayəsini səsləndiriblər. Milli rəqslər və Aşıq Ələsgərə həsr olunmuş poetik nümunələrdən ibarət bədii kompozisiyalar nümayiş etdirilib.

Elmi Şuranın iclası - Ötən il 47 elmi-tədqiqat işi tədrisdə tətbiq hüququ qazanıb, 1300-dək müəllim reytinq qiymətləndirilməsindən keçib



Aprelin 24-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Elmi Şurasının növbəti iclası keçirilib. Əvvəlcə, ADPU-nun 2024-cü ildəki elmi nəşrlərindən ibarət sərgiyə baxış keçirilib.

İclası giriş sözü ilə açan Elmi Şuranın sədri, ADPU-nun rektoru professor Cəfər Cəfərov ötən iclasdan cari dövrədək universitet əməkdaşlarının və tələbələrinin yerli və beynəlxalq sferada əldə etdikləri nailiyyətləri barədə məlumat verib. Rektor qeyd edilən dövr ərzində elmi dərəcə və ad almış əməkdaşlara müvafiq diplomları təqdim edib. Quba filialının direktoru, fizika elmləri doktoru, dosent Yusif Alıyevə professor attestatı, filialın müəllimi Pərvanə Rzayeva və ADPU-nun Fəlsəfə və sosial elmlər kafedrasının müəllimi Nuridə Qasımovaya isə fəlsəfə doktoru diplomu təqdim edilib.

Daha sonra elm və innovasiyalar üzrə prorektor professor Asəf Zamanov ADPU-nun 2024-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti barədə hesabatla çıxış edib. Prorektor bildirib ki, hesabat dövründə təsdiq edilmiş plan əsasında 825 nəfər professor-müəllim heyətindən 760 nəfəri 59 istiqamətdə, 124 problem üzrə 458 mövzuda elmi-tədqiqat işi yerinə yetirib, tətbiqi və innovasiya xarakterli ən əhəmiyyətli 47 elmi-tədqiqat işi tədris prosesində tətbiq hüququ qazanıb. Universitet əməkdaşlarının 2024-cü ildə 517-si (69-u impakt faktor göstəricili jurnallarda) xarici ölkə dövri nəşrlərində olmaqla 1151 elmi məqalə, 728 tezis (xaricdə 420), 27 monoqrafiya (8-i ADPU-nun Elmi Şurasının qərarı ilə çap olunub), 16 dərslik, 69 dərs vəsaiti, 38 kitab, 171 proqram və metodik vəsaitləri və s. nəşr olunub.

Bildirilib ki, əgər 2023-cü ildə "Scopus" bazasında ADPU-nun 164 professor-müəllim heyətinin 333 məqaləsi qeydə alınmışdısa, 2024-cü ildə bu göstərici 197 nəfər üçün 408 məqalə təşkil edib. 2024-cü ildə ADPUnun H-indeksli alimlərinin sayı 96 ("Scopus") və 158 ("Google Scholar") olub. Ümumilikdə "Scopus"da H-indeksinin sayı 201, "Google Scholar"da isə 372 təşkil edir. 2020-2023-cü illər ərzində "Web of Science" beynəlxalq istinad bazasında indekslənən jurnallarda dərc olunan elmi işlərin təhlilinə əsasən ADPU Elm və Təhsil Nazirliyinə tabe universitetlər arasında 4-cü yerdə qərarlaşıb. Son 4 il ərzində ADPU-nun professor-müəllim heyətindən 15 nəfər professor, 51 nəfər dosent, 12 nəfər elmlər doktoru, 48 nəfər fəlsəfə doktoru elmi ad və dərəcəsi alıb. Daha sonra prof. A.Zamanov ADPU-nun cari dövrlər üzrə ev sahibliyi etdiyi və təmsil olunduğu yerli və beynəlxalq konfranslar, elmi nəşrlər, beynəlxalq elmi əməkdaşlıq, magistratura səviyyəsi üzrə yeni yaradılmış ixtisaslaşmalar və digər istiqamətlər üzrə statistik məlumatları təqdim edib.

Çıxış edən Keyfiyyətin təminatı şöbəsinin müdiri dosent Qalib Şərifov ADPU-da professor-müəllim heyətinin 2024-cü ildə fəaliyyətinin Reytinq qiymətləndirməsi barədə hesabatı təqdim edib. Qeyd edilib ki, 2024-cü ildə reytinq qiymətləndirməsində 1292 müəllim iştirak edib ki, bu say 2023-cü ildə 1271 nəfər, 2022-ci ildə isə 1185 nəfər təşkil edib. Cari ildə qiymətləndirmədə iştirak edən müəllimlərin 815 nəfəri ADPU, 263 nəfərləri onun filialları, 214 nəfəri isə ADPU-nun nəzdində Pedaqoji Kollecin müəllimləridir. Qiymətləndirmədə ümumilikdə 55 elmlər doktoru, 406 fəlsəfə doktoru, 42 professor, 255 dosent elmi adı olan, 13 dekan və 47 kafedra müdiri iştirak edib. ADPU üzrə ən yüksək orta reytinq balı Filologiya fakültəsində qeydə alınıb (1481.94 bal). 2023-cü ildə bu göstərici 1023.45 bal olub. Kafedralar üzrə isə ən yüksək nəticə 2094.74 balla Müasir Azərbaycan dili kafedrasında qeydə alınıb. Reytinq qiymətləndirilməsində iştirak edənlərin cəmi 8.75 % -i 100-dən aşağı bal yığıb ki, bu da son 4 il ərzində ən aşağı göstəricidir və 2021-ci ilin nəticələri ilə müqayisədə 4 dəfəyə qədər azalma deməkdir.

Daha sonra Q.Şərifov fakültə və filiallar üzrə reytinq qiymətləndirməsinin ayrı-ayrılıqda statistikasını və qiymətləndirmə ilə bağlı yeni təklifləri təqdim edib. İclas işini cari məsələlərin müzakirəsi ilə davam etdirib. Elm və innovasiyalar üzrə prorektor prof. Asəf Zamanov magistr dissertasiya mövzusunun müəyyənləşdirilməsi və elmi rəhbərin təsdiqi, monoqrafiyanın çapa təqdim edilməsi və bəzi əməkdaşlara dosent elmi adının verilməsi üçün AAK qarşısında vəsatət qaldırılması barədə təklifləri təqdim edib. Sosial və humanitar məsələlər üzrə prorektor prof. Fikrət Rzayev "ADPU-nun Gənc Müəllimlər Assosiasiyasının Əsasnaməsi"nin təsdiqi barədə təkliflə çıxış edib. Elmi katib r.ü.f.d. Nərminə Abdullayeva Fizika və Riyaziyyat fakültələrində yeni ixtisasların açılması ilə əlaqədar İşçi qrupun yaradılması və "ADPU-nun Elmi Şurasının Əsasnaməsi"nin təsdiq edilməsi barədə təklifləri səsləndirib.

Sonda təklif edilən məsələlər səsə qoyularaq qəbul edilib.

"StuDance" - Pedaqoji Universitetdə maraqlı tədbir



Aprelin 25-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Təhsil Könüllüləri Tələbə Birliyinin (TKTB) təşkilatçılığı ilə Beynəlxalq Rəqs Gününə həsr edilmiş "StuDance" adlı bədii-əyləncəli tədbir keçirilib.

Tədbirdə çıxış edən ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev qeyd edib ki, bu cür tədbirlər tələbələrin mədəni-estetik dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Pedaqoji Universitetin daxilində fəaliyyət göstərən ictimai təşkilatların hər zaman öz fəallıqları ilə fərqləndiklərini qeyd edən prorektor universitetdə yaradıcı və fəal tələbələrin artmasının sevindirici hal olduğunu vurğulayıb və bu təşəbbüsə görə təşkilatçılara təşəkkürünü bildirib.

ADPU TKTB sədri Səidə Abulova çıxışında qeyd edib ki, birlik tələbələrin asudə vaxtının səmərəli keçirilməsi istiqamətində bir sıra fəaliyyətlər icra edir ki, bunlardan biri də təşkilatın daxilində fəaliyyət göstərən rəqs dərnəyidir. S.Abulova Beynəlxalq Rəqs Günü münasibətilə dərnəyin aktiv üzvlərinin iştirakı ilə təşkil edilmiş tədbirin əsas məqsədinin tələbələrin yaradıcılıq potensialını üzə çıxarmaq və onları müxtəlif sənət sahələrinə təşviq etmək olduğunu, eyni zamanda imtahan sessiyası qabağı tələbələr üçün əlavə motivasiya olacağını bildirib. Bədii hissədə tanınmış skripka ifaçısı Nahid Rüstəmli ifaları ilə tədbirə rəng qatıb. "Ayna Band" qrupu tələbələrin qarşısında gənclər tərəfindən sevilən və dillər əzbəri olan mahnıları ilə çıxış ediblər.

Gənclər tərəfindən böyük maraqla qarşılanan tədbir tələbələrin ifasında Azərbaycan milli filmlərindən səhnəciklərin, milli və dünya xalqlarının rəqslərindən təşkil edilmiş rəqs kompozisiyalarının nümayiş etdirilməsi ilə davam edib.

Növbəti "Mən rəhbər olsam" layihəsi keçirilib



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Fizika fakültəsində növbəti dəfə "Mən rəhbər olsam" layihəsi keçirilib. Layihə çərçivəsində fəal tələbələr fakültəyə bir günlük rəhbərlik ediblər.

Fizika fakültəsinin dekanı dosent Arzu Daşdəmirov, dekan müavini dos. Xankişi Məmmədov, Tələbə Elmi Cəmiyyətinin sədri dos. Xatirə Adıgözəlova tələbələrin uyğun vəzifələr üzrə iş fəaliyyətlərini müşahidə edib, "tələbə rəhbər"lərlə müzakirələr aparıblar.

Qeyd edək ki, layihə çərçivəsində tələbələr arasında keçirilən səsvermənin nəticələrinə əsasən, səs çoxluğu ilə Səma Həsənova dekan, Türkanə Kazımova dekan müavini, Saleh Mahmmudov Ümumi fizika kafedrasının, Çiçək Osmanova Fizikanın tədrisi texnologiyası kafedrasının, Vüsalə Muradova STEAM Mərkəzinin, Səlmi İmamverdiyeva Əməyin Texnologiyası kafedrasının müdiri vəzifəsinə, Afət Əsgərli Tələbə Elmi Cəmiyyətinin sədri, Gövhər Abdullayeva, Yasəmən Mürsəlova, Jalə Mehdizadə və Firəngiz Qəniyeva isə tütor vəzifəsinə seçiliblər.

Tələbələr bir iş günü ərzində müvafiq vəzifələri icra ediblər.

Süni intellekt və müasir pedaqoji yanaşmalar mövzusunda beynəlxalq görüş keçirilib



Mayın 2-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) ABŞ-nin Miçiqan Dövlət Universitetinin texnologiya və insan öyrənməsi üzrə professoru Duqlas K. Hartman və Türkiyənin Boğaziçi Universitetinin Təhsil fakültəsinin dekanı professor Dilek Altun ilə görüş keçirilib. Görüşdə ADPU-nun tədris işləri üzrə prorektoru dosent Eldar Aslanov, elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov, strateji inkişaf məsələləri üzrə prorektoru Könül Pirverdiyeva, ADPU-CVU ikili diplom proqramının ADPU üzrə proqram direktoru Tofiq Əhmədov, eləcə də Beynəlxalq əlaqələr şöbəsinin mütəxəssisləri Gülnar Ələkbərova və Nərgiz Səfərova iştirak ediblər.

Görüşün əsas məqsədi süni intellektin təhsil sahəsində tətbiqi, müasir pedaqoji yanaşmalar və beynəlxalq təcrübə mübadiləsi ilə bağlı elmi-praktik müzakirələrin təşkili, eyni zamanda ADPU-nun beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi olub.

Səfər çərçivəsində professor Dilek Altun və professor Duqlas K. Hartman ADPU-nun müəllim və işçi heyətinə "Məktəbəqədər yaşda süni intellekt savadlılığı, "Gənc şüurlara süni intellektin təqdim edilməsi: erkən uşaqlıq təhsilində süni intellektin əsasları" və "Tədris və öyrənməni gücləndirən süni intellekt ilə təkmilləşdirilmiş peşəkar inkişafın dizaynı" mövzularında təlim keçiblər.

ADPU rəhbərliyi Hacettepe və Çankaya universitetlərində olub



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rəhbərliyinin Türkiyə Respublikasına işgüzar səfəri davam edir. Səfər çərçivəsində ADPU-nun rektoru professor Cəfər Cəfərovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyənin nüfuzlu ali təhsil müəssisələrindən olan Hacettepe və Çankaya universitetlərində rəsmi görüşlər keçirib.

Səfərin əsas məqsədi ADPU ilə Türkiyə universitetləri arasında elmi-pedaqoji əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası, habelə təhsil və tədqiqat sahəsində təcrübə mübadiləsi barədə müzakirələrin aparılmasıdır. Görüşlər zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, əməkdaşlığa dair bir sıra ilkin razılaşmalar əldə olunub.

Görüş çərçivəsində ADPU nümayəndə heyəti Hacettepe və Çankaya universitetlərinin tədris prosesi ilə yaxından tanış olublar.

Rektor Türkiyə Ali Təhsil Şurasının sədri ilə görüşüb



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri çərçivəsində mayın 6-da universitetin rektoru professor Cəfər Cəfərov Türkiyə Respublikasının Ali Təhsil Şurasının (YÖK) rəhbəri professor Erol Özvar ilə görüşüb.

Görüş zamanı iki qardaş ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlıq imkanları geniş müzakirə olunub. Professor C.Cəfərov ADPU-nun beynəlxalq əlaqələrinin inkişafı istiqamətində atılan addımlar barədə məlumat verib, Türkiyənin qabaqcıl universitetləri ilə əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyini vurğulayıb.

Tərəflər arasındakı müzakirələrdə, xüsusilə, ADPU ilə Qazi Universiteti arasında həyata keçirilməsi planlaşdırılan ikili diplom proqramı diqqət mərkəzində olub. Bu proqramın həyata keçirilməsi müəllim hazırlığı sahəsində yeni imkanlar yaradacaq, eləcə də iki ölkə arasında elmi və akademik mübadiləni gücləndirəcək.

Görüş səmimi və konstruktiv şəraitdə keçib, qarşılıqlı əməkdaşlığın gələcək perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda rektor prof. C.Cəfərov prof. E.Özvara ölkələrimiz arasında ali təhsil sahəsində qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə təltif edildiyi "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)" Azərbaycan Respublikasının yubiley medalını təqdim edib.

ADPU-da "Müasir Azərbaycanın Memarı – Ulu Öndər Heydər Əliyev yaddaşlarda" adlı tədbir keçirilib



Mayın 7-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının "Ü.Hacıbəyli-68" Ərazi Partiya Təşkilatının (ƏPT) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Müasir Azərbaycanın Memarı - Ulu Öndər Heydər Əliyev yaddaşlarda" adlı tədbir keçirilib.

Tədbirddə ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov, sosial və humanitar məsələlər üzrə prorektor prof. Fikrət Rzayev, ATU-nun baş müəllimi, UNESCO-nun Bioetika üzrə Beynəlxalq Müəllimlər Forumunun üzvü Aida Bəndəliyeva, "Fitoterapevtlər İctimai Birliyi"nin sədri, professor Məlahət Qəhrəmanova, "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədri Bahar Qasımova, universitetin müvafiq sturuktur rəhbələri, professor-müəllim heyti və təl変lər iştirak ediblər.

Görüşdən əvvəl qonaqlar Ulu Öndərin universitetdəki abidəsi və şəhidlərin xatirəsinə yaradılmış guşəni ziyarət edib, ADPU-nun Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan Səbail rayon təşkilatının "Ü.Hacıbəyli-68" ƏPT sədri dos. Sultanəli Qurbanov Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçiliyi tarixindəki mühüm rolundan bəhs edib.

Ardınca Ümummilli Liderin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, onun həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Çıxış edən ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov vurğulayıb ki, Heydər Əliyevin elm və təhsilin inkişafına göstərdiyi diqqət və qayğı Azərbaycan dövlətinin intellektual inkişafının təməlini təşkil edir. Prorektor vurğulayıb ki, Heydər Əliyevin təşəbbüsü ilə hələ 1970-80-ci illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin aparıcı ali məktəblərində və elmi mərkəzlərində təhsil almaları üçün geniş imkanlar yaradılmış, bu proses müstəqillik illərində daha sistemli və məqsədyönlü şəkildə davam etdirilmişdir. Gənclərin müasir biliklərlə silahlanması, onların milli kadra çevrilməsi, müxtəlif sahələrdə ixtisaslaşmış mütəxəssislərin yetişməsi Ulu Öndərin həyata keçirdiyi kompleks və düşünülmüş siyasətin nəticəsidir və bu siyasət bu gün də H.Əliyev siyasi irsinin layiqli davamçısı tərəfindən uğurla davam etdirilir.

Fitoterapevtlər İctimai Birliyi"nin sədri, professor Məlahət Qəhrəmanova və ATU-nun baş müəllimi, UNESCO-nun Bioetika üzrə Beynəlxalq Müəllimlər Forumunun üzvü Aida Bəndəliyeva çıxışlarında bildiriblər ki, Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində apardığı uğurlu quruculuq işləri ölkədə səhiyyə sistemi gücləndirildi, əhalinin sağlamlığının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

"Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədri Bahar Qasımova qeyd edib ki, Ulu Öndər qadınların ictimai-siyasi proseslərdə fəal iştirakını təmin edərək, onların hüquqlarını təmin edən ciddi islahatlar aparmışdır ki, bu islahatlar nəticəsində Azərbaycan qadın hüquqlarının təmini sahəsində nümunə dövlətlərdən birinə çevrilmişdir. ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev Ulu Öndərin müəyyən etdiyi milli-mənəvi istiqamət bu gün də Azərbaycan gəncliyinin formalaşmasında aparıcı ideoloji bazaya çevrildiyini vurğulayıb. Tədbir ümumi müzakirələrlə davam edib. Sonda YAP sıralarına yeni daxil olmuş əməkdaş və tələbələrə üzvlük vəsiqəsi təddim edilib.

Ulu Öndərin 102 illiyi geniş şəkildə qeyd edilib



Mayın 8-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə "Milli maraqlar naminə siyasi çeviklik: Heydər Əliyev strategiyası" mövzusunda Respublika elmi konfransı keçirilib. Konfrans Azərbaycan Respublikası Milli Məclisinin Elm və təhsil komitəsi, Elm və Təhsil Nazirliyi və ADPU-nun birgə təşkilatçılığı ilə baş tutub.

Konfransdan əvvəl ADPU-nun müəllimi və Azərbaycan Rəssamlar İttifaqının üzvü Vəfa Cəfərova-Allahyarovanın "1001 ahəng" adlı fərdi sərgisi keçirilib. Fərdi sərgidə müəllifin 34 rəsm əsəri nümayiş olunub.

Konfransı giriş sözü ilə açan ADPU-nun rektoru professor Cəfər Cəfərov Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin formalaşmasındakı əhəmiyyətli roluna diqqət çəkərək qeyd edib ki, Heydər Əliyevin əsasını qoyduğu ideyalar müstəqil Azərbaycan dövlətinin əsas ideoloji və siyasi dayağı kimi bu gün də öz aktuallığını qoruyur. Rektor bu cür elmi tədbirlərin gənc nəsildə Heydər Əliyev irsinin elmi əsaslarla öyrənilməsinə və sistemli şəkildə təbliğinə ciddi töhfə verdiyini vurğulayıb.

"Heydər Əliyev - Müstəqil Azərbaycan dövlətinin qurucusu" mövzusunda geniş məruzə ilə çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri professor Anar İsgəndərov bu tip ictimai tədbirlərin təşkilini əhəmiyyətinə toxunaraq, bu təşəbbüsün Milli Məclislə ilk olaraq ADPU arasında reallaşdırılmasının təsadüfi olmadığını vurğulayıb. O, məruzəsində Üulu Öndərin müxtəlif ictimai-siyasi quruluşlar zamanında göstərdiyi milli siyasi fəaliyyətinin müxtəlif aspektlərinə toxunub.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov "Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası" mövzusunda məruzəsində qeyd edib ki, Ümummilli Liderin təhsil və elmə, mədəni inkişafa verdiyi sistemli dəstək nəticəsində bu sahələr müstəqil Azərbaycanın dayanıqlı inkişaf sütunlarına çevrilmişdir. Bildirilib ki, Ümummilli Liderin əsas hədəflərindən biri Azərbaycanın elmi və intellektual potensialını inkişaf etdirmək idi. Onun təşəbbüsü ilə ölkədə elmi-tədqiqat institutları gücləndirildi, minlərlə azərbaycanlı gəncin bacarıqlı kadr kimi formalaşdırılması istiqamətində əməli addımlar atıldı. Hələ ötən əsrin 60-cı illərində fundamental elmlər və kosmos sahəsində tədqiqatların aparılması istiqamətində icra olunan işlər birbaşa Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilirdi. Burada bu gün müasir elmi-texniki inkişafın əsası olan İT, süni intellekt kimi istiqamətlərin əsası olan kibernetika elminin inkişafını xüsusilə qeyd etmək lazımdır.

Daha sonra Milli Məclisin Elm və təhsil komitəsinin üzvü professor Bəxtiyar Əliyev "Azərbaycan Respublikasının suverenliyinin tam bərpası Heydər Əliyev siyasətinin Zəfər təntənəsidir" mövzusunda çıxış edərək bildirib ki, 2020-ci ildə Vətən müharibəsində əldə olunan qələbə Ali Baş Komandanın rəhbərliyi ilə uğurla davam etdirilən Heydər Əliyev strategiyasının tarixi məntiqi və siyasi qələbəsidir.

Çıxış edənlərdən Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri - dosent Pərvin Kərimzadə "Heydər Əliyev - Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi", professor Samir Vəliyev "Heydər Əliyev ideyaları uğurlarımızın təminatıdır", professor Vasif Qafarov "Heydər Əliyev və müasir Azərbaycan", ADPU-nun Heydər Əliyev Mərkəzinin müdiri Tahir Süleymanov isə "Azərbaycanda dövlətçilik ənənələrinin inkişafında Heydər Əliyevin rolu" mövzularında geniş məruzə ediblər. Konfransın sonunda çıxışlar ətrafında interaktiv diskussiya təşkil olunmuş, Heydər Əliyev irsinin elmi tədqiqi və sistemləşdirilməsi istiqamətində gələcək addımlar, eləcə də bu irsin təhsildə, gənclərin vətənpərvərlik ruhunda formalaşdırılmasında tətbiq mexanizmləri geniş müzakirə olunub. Konfransın rəsmi hissəsindən sonra tədbir ADPU-nun İncəsənət və fiziki tərbiyə fakültəsinin təşkilatçılığı ilə fakültənin müəllim, tələbə və xor kollektivinin ifalarından ibarət konsert proqramı ilə davam edib. Proqramda təqdim olunan milli və dünya klassik musiqisinin inciləri iştirakçılarda xoş təəssüratlar yaradıb.

Rektor ADPU-nu robot olimpiadasında təmsil edən komandanın üzvləri ilə görüşüb



Rektor professor Cəfər Cəfərov Azərbaycanda ilk dəfə keçirilən Azərbaycan Beynəlxalq Robot Olimpiadasında Azərbaycan Dövlət Pedaqoji Universitetini təmsil edərək "Mega Sumo" və "Line folowing" kateqoriyalarında müfafiq olaraq II və III yerlərə layiq görülən "Farad" komandasının üzvlərini qəbul edib.

Görüşdə Fizika fakültəsinin dekanı dosent Arzu Daşdəmirov, ADPU-nun ELmi-Tədqiqat Mərkəzinin direktoru dosent Ərastun Mehdiyev və komandanın üzvləri Həsənova Nərmin, Şəfiyev Uğur, Cəfərova Tünzalə, Hacılı Əsmər və Qafarova Zeynəb iştirak edib.

Görüşdə prof. C.Cəfərov gənclərin intellektual səviyyəsinin yüksəldilməsində STEAM Mərkəzinin əhəmiyyətindən danışıb və elmin yüksək pilləsinə qalxmaq üçün nəzəriyyə və praktikanın vəhdətini vurğulayaraq qalib tələbələri təbrik edib. Eyni zamanda bu uğura imza atan fakültənin gənc tədqiqatçı müəllimlərindən olan, f.f.d. Vəfa Abdurahmanovanın əməyini yüksək qiymətləndirərək fəaliyyətində uğurlar arzulayıb.

Professor Nailə Verdizadənin 80 illik yubileyi qeyd olunub



Mayın 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kimya və biologiya fakültəsinin təşkilatçılığı ilə Analitik və üzvi kimya kafedrasının professoru, uzun illər təhsil sahəsinə öz töhfəsini vermiş professor Nailə Verdizadənin 80 illik yubileyi qeyd edilib.

Pedaqoji Universitetin rektoru professor Cəfər Cəfərov yubiley tədbirində qonaqları salamlayaraq, qocaman müəllimlərin uzun illər universitetdə göstərdikləri fəaliyyəti yüksək dəyərləndirib, Nailə xanıma təbriklərini ünvanlayıb və uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə görə yubiliyarı Fəxri Fərmanla təltif edib.

Yubiley tədbirində çıxış edən Elm və Təhsil Nazirliyinin Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru akademik Vaqif Abbasov, AMEA-nın akademiki, BDU-nun Üzvi kimya kafedrasının müdiri akademik Abel Məhərrəmov, ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov, ADPU Həmkarlar İttifaqı Komitəsinin sədri dosent Vaqif Əliyev, Kimya və biologiya fakültəsinin dekanı dosent Reyhan Ağayeva, dekan müavini dosent Bəsti Əsədova, Analitik və üzvi kimya kafedrasının müdiri professor Əli Zalov, AMEA-nın Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru İsmayıl Kazımov, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli, müstəqil jurnalist Seymur Verdizadə və ailə üzvləri xatirələrini və ürək sözlərini bölüşərək prof. N.Verdizadənən zəngin elmi-pedaqoji fəaliyyətinə nəzər salıblar.

Tədbir videoçarxlar, təbriklər və musiqili proqramla davam edib. Sonda professor Nailə Verdizadə tədbir təşkilatçılarına və iştirakçılara öz təşəkkürünü bildirib.

Qeyd edək ki, tədbirdə, həmçinin ADPU-nun Tədris departamentinin direktoru dosent Sənan Əliyev, Biologiya və onun tədrisi texnologiyası kafedrasının müdiri dosent Anaxanım Yusifova, Ümumi kimya və kimyanın tədrisi texnologiyası kafedrasının müdiri dosent Kəmalə İskəndərova, universitetin çoxsaylı professor-müəllim heyəti və tələbələr iştirak etmişlər.

Pedaqoji Universitetdə Xüsusi Təhsil İşçilərinin I Beynəlxalq Forumu keçirilib



Mayın 17-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Elm və Təhsil Nazirliyi, ADPU və universitetin Məktəbəqədər təhsil fakültəsinin birgə təşkilatçılığı ilə Xüsusi Təhsil İşçilərinin I Beynəlxalq Forumu keçirilib. Forumda dövlət rəsmiləri, ADPU rəhbərliyi, təhsil ictimaiyyətinin nümayəndələri, təhsil ekspertləri, müxtəlif ölkələrdən olan xüsusi təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislər, müəllimlər və tədqiqatçılar iştirak ediblər.

Forumdan əvvəl universitetdə Ümumilli Lider Heydər Əliyevin abidəsi və Zəfər guşəsi ziyarət edilib. Daha sonra qonaqlar Koxlear İmplantlı Şəxslərə Sosial Yardım İctimai Birliyinin təşkilatçlığı ilə hazırlanmış əl işləri və rəsm sərgi-yarmarkası və ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin Xüsusi təhsil kafedrasının professor-müəllim heyətinin son illərdəki elmi nailiyyətlərini əks etdirən əsərlərin sərgisi ilə tanış olublar. Forumda açılış nitqi ilə çıxış edən ADPU rektoru professor Cəfər Cəfərov tədbirin xüsusi təhsil sahəsi üçün əhəmiyyətini vurğulayaraq, bu forumun həm elmi, həm də sosial baxımdan mühüm bir hadisə olduğunu qeyd edib. C.Cəfərov bildirib ki, cəmiyyətin hər bir üzvünün keyfiyyətli təhsilə bərabər çıxış hüququ var və bu istiqamətdə çalışan mütəxəssislər böyük sosial məsuliyyət daşıyırlar. Rektor, ADPU-nun bu sahədə beynəlxalq əməkdaşlıqları və elmi-praktik təşəbbüsləri dəstəklədiyini vurğulayaraq, forumun bu istiqamətdə yeni imkanlar yaradacağına əminliyini ifadə edib. Çıxış edənlərdən Azərbaycan Respublikası Milli Məclisinin deputatları Mehriban Vəliyeva və Ceyhun Məmmədov, təhsil nazirin müşaviri Nigar Bağırlı, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev və Məktəbəqədər və Ümumi Təhsil Üzrə Dövlət Agentliyinin Xüsusi təhsil sektorunun müdiri Anar Xələfov sağlamlıq imkanları məhdud uşaqların inkişafı üçün yeni metod və yanaşmaların tətbiqinin vacibliyi, bu sahədə görülən işlər və gələcək hədəflər, beynəlxalq əməkdaşlığın bu istiqamətdə açdığı imkanlar barədə danışıblar.

ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekanı dosent Nailə Hüseynova bu kimi tədbirlərlə universitet və fakültənin xüsusi təhsil sahəsindəki ən müasir tendensiyaları müqayisə edərək bu sahədə əməkdaşlıq və təcrübə mübadiləsini hədəflədiyini diqqətə çatdırıb. Əsas məqsədi xüsusi təhsil sahəsində çalışan peşəkarların bacarıqlarını daha da inkişaf etdirmək, beynəlxalq əməkdaşlıq əlaqələrini möhkəmləndirmək və müxtəlif problemlərə innovativ həllər tapmaq olan forum işini panel müzakirələrlə davam etdirib. "Xüsusi təhsil sistemində rəqəmsal resurslardan istifadə və distant təhsil" , "Xüsusi təhsil sistemində tədqiqatlar və innovasiyalar" və "Xüsusi təhsil sistemində sağlamlıq imkanları məhdud uşaqların diaqnostik qiymətləndirməsi" panelləri üzrə keçirilən müzakirələrdə müxtəlif ölkələrdən olan təhsil mütəxəssisləri, müəllimlər və tədqiqatçıların sağlamlıq imkanları məhdud uşaqların inkişafı üçün müxtəlif metodlar, proqramlar və təcrübələr haqqındakı təqdimatları dinlənilib, geniş müzakirələr aparılıb.

ADPU-da "STEAM Hesabat sərgisi" keçirilib



Mayın 21-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Fizika fakültəsinin STEAM Mərkəzinin təşkilatçılığı ilə "STEAM Hesabat sərgisi" keçirilib.

Sərgidə tələbələrin hazırladıqları müxtəlif layihələr, əl işləri, cihaz və qurğular nümayiş etdirilib. Rektor professor Cəfər Cəfərov, universitet rəhbərliyi, fakültə dekanları və professor-müəllim heyəti sərgiyə baxış keçiriblər.

ADPU TGT-nin 20 illiyi: "G20 - Gənclikdən gələcəyə"



Mayın 21-də Azərbaycan Dövlət Pedaqoji Universiteti Tələbə Gənclər Təşkilatının (ADPU TGT) yaradılmasının 20 illiyi münasibətilə "G20 – Gənclikdən gələcəyə" adlı tədbir keçirilib. Tədbir ADPU Gənc Məzunlar Assosiasiyasının dəstəyi ilə həyata keçirilib.

Universitet rəhbərliyi və TGT məzunlarının iştirak etdiyi tədbirdə açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov təşkilatın universitet həyatına verdiyi dəyərli töhfələrdən danışıb, könüllü fəaliyyətin əhəmiyyətini vurğulayıb. Rektor ADPU TGT-nin tələbələrin liderlik bacarıqlarının formalaşmasında və ictimai fəallığının artmasında mühüm rol oynadığını xüsusi qeyd edib.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri Rəşad Zeynalov və ADPU TGT-nin hazırkı sədri Çiçək Sultanlı çıxış edərək, təşkilatın 20 illik zəngin və dinamik fəaliyyətini qeyd edib.

Tədbirin davamında 20 il ərzində ADPU TGT-nin bir parçası olmuş, tarixinə iz qoymuş məzunların fikirləri və xatirələrinin əks olunduğu videoçarx nümayiş olunub.

Daha sonra Azərbayacan Milli Konservatoriyasının tələbəsinin ifasında "Getmə Amandı" mahnısı dinlənilib. Gənc və istedadlı ifaçılar - Cavidan Fatihi və skripka ifaçısı Nahid Rüstəmli ifaları ilə tədbirə xüsusi rəng qatıblar.

Tədbirdə ADPU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Cəmilə Qurbanova tərəfindən ADPU TGT-nin 20 yaşı münasibətilə Çiçək Sultanlıya xatirə hədiyyəsi təqdim olunub. Milli mədəniyyətimizi əks etdirən "Uzundərə" rəqsinin Odlar Yurdu Universiteti tələbələri tərəfindən təqdim olunmasından sonra Azərbaycan Milli Konservatoriyasının Tələbə Gənclər Təşkilatının sədri Xəyal Məmmədovun ifası, tələbələrin tar və kamançada müşayəti ilə "Bayatı-şiraz təsnifi", Azərbaycan Milli Konservatoriyasının tələbəsi tərəfindən "Mənim Azərbaycanım" mahnısı ifa olunub.

Tədbirdə, eyni zamanda, tələbələr tərəfindən çəkilən, təşkilatda tarix boyu istifadə olunan loqolar sərgilənib.

ADPU-da "Türk Dünyası və Piri Türkistan: Yesevi Yolu və İrsi" Beynəlxalq Elmi Konfransı Keçirilib



Mayın 26-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Türk Dünyası və Piri Türkistan: Yesevi Yolu və İrsi" mövzusunda Beynəlxalq elmi konfrans təşkil olunub. Konfransın əsas məqsədi böyük türk sufi alimi Xoca Əhməd Yəsəvinin mənəvi və mədəni irsinin Türk dünyasında rolu və əhəmiyyətini elmi aspektdən araşdırmaq, bu irsin müasir dövrdəki təsirlərini işıqlandırmaq və ortaq mədəni yaddaşı möhkəmləndirməkdir. Konfrans çərçivəsində ADPU-nun rektoru professor Cəfər Cəfərov, beynəlxalq əlqələr üzrə prorektor professor Mahirə Hüseynova, elm və innovasiyalar üzrə prorektor professor Asəf Zamanov, tədris işləri üzrə prorektor dosent Eldar Aslanov ilə iştirakçılar arasında görüş keçirilib, elm və təhsil sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

ADPU-nun rektoru professor Cəfər Cəfərov konfransı açılış nitqi ilə açaraq, Xoca Əhməd Yəsəvinin Türk dünyasında mənəvi və mədəni rolu haqqında çıxış edib. Daha sonra Azərbaycan Turizm və Menecment Universitetinin prorektoru Araz Aslanlı, Ankara Hacı Bayram Vəli Universitetinin prorektoru prof. Mətin Orbay, konfransın Təşkilat Komitəsinin üzvü prof. Sədullah Gültən çıxış ediblər.

ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyevin moderatorluğu ilə keçirilən konfransın açılış panelində Türkiyə Respublikası Milli Müdafiə Universitetinin dekanı prof. İbrahim Ethem Atnur "Türkiyə-Azərbaycan münasibətlərinin dünəni, bu günü və sabahı", Ankara Universitetindən prof. Abdullah Gündoğdu isə "Şah İsmayıl və Türk dünyası" mövzularında çıxış edərək Türk dünyası və Azərbaycan-Türkiyə münasibətlərinin tarixi, mədəni və siyasi aspektlərini müzakirə ediblər.

Konfransın birinci panelində prof. Fateh Ünal (Ordu Universiteti) "Əhməd Yəsəvinin qəbilə mənsubiyyəti haqqında görüşlər", dos. Cavid Güzəl (Amasya Universiteti) "Xoca Əhməd Yəsəvinin mənəvi irsinin təhlili: Mənqəbələrin ruhani yolçuluğu", Həlim Qılınc (Ankara Hacı Bayram Vəli Universiteti) "Osmanlı paytaxtında Yəsəvi irsi: XIX əsrdə özbək təkkələri", dos. Məsud Qaraqulaq (Ankara Hacı Bayram Vəli Universiteti) "Yəsəvilik qaynaqları ilə bağlı mübahisələr və yeni yanaşmalar", dos. Əfşan Şəfiyeva (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) "Əhməd Yəsəvi irsi: Türk xalqlarının ortaq mədəniyyət nümunəsi kimi", ikinci paneldə isə prof. Haşim Şahin (Anadolu Universiteti) "Anadolunun fəthində Xoy mənşəli mütəsəvviflər", prof. Nəsrullah Uzman "Türkiyədə milli kimliyin formalaşmasında din anlayışı: Yəsəvilik nümunəsi", prof. Minəxanım Əsədova (Azərbaycan Turizm və Menecment Universiteti) "Əhməd Yəsəvi türbəsinin dünya şöhrəti və turizm potensialı", dos. Aynur İbrahimova (AMEA-nın Folklor İnstitutu) "Türk dünyasında müqəddəs məkanlar və onların sosial funksiyaları", dos. Əziz Altı "Övliya Çələbiyə görə Azərbaycanda yəsəvilik izləri" və Oğuz Xağan Bayraqdar isə "Bakı və onun tarixi kimliyi" mövzularında çıxışlar ediblər. Konfransda, həmçinin Özbəkistanın Fərqanə Universitetinin nümayəndələri də iştirak edib. Tədbir zamanı Əhməd Yəsəvinin tarixi şəxsiyyəti, mənəvi irsi, yəsəvilik düşüncəsinin Osmanlı və Azərbaycan ərazilərində yayılması, müqəddəs məkanların sosial funksiyaları, Yəsəvi türbəsinin turizm potensialı və digər aktual mövzular geniş şəkildə müzakirə olunub. Qeyd edək ki, konfranslar silsiləsi Ankara Hacı Bayram Vəli Universiteti tərəfindən irəli sürülən layihə əsasında türkdilli dövlətlərdə mənəvi birliyi möhkəmlətmək məqsədi ilə icra olunur.

Müstəqillik Günü qeyd edilib





Mayın 26-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) 28 May - Müstəqillik Günü münasibətilə elmi-praktik konfrans keçirilib. Tədbirdə universitet rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov qeyd edib ki, 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk parlamentli, demokratik respublika kimi tarixə düşüb. Cəmi 23 ay mövcud olmasına baxmayaraq, Cümhuriyyət milli dövlət quruculuğunun əsaslarını qoyub və xalqımızın müstəqil yaşamaq haqqını bütün dünyaya nümayiş etdirib. 1991-ci ildə müstəqilliyimiz bərpa olunduqdan sonra Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi ilə Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin hüquqi varisi elan edildi. Ulu Öndərin təşəbbüsü ilə 28 May rəsmi dövlət bayramı kimi qeyd olunmağa başlandı. 2021-ci ildə isə Prezident cənab İlham Əliyevin imzaladığı sərəncamla bu günə yeni hüquqi-siyasi məzmun verildi və 28 May tarixi artıq Müstəqillik Günü adı ilə rəsmi şəkildə təsbit olundu. Rektor bildirib ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənib və xalqımız öz suverenliyini qürurla və əzmlə qoruyur. Xüsusilə, 2020-ci ildə Vətən müharibəsində əldə olunan tarixi Zəfər müstəqilliyimizin gücünü, xalq-ordu-dövlət birliyimizin sarsılmazlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Bu zəfər nəticəsində torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz və tarixi ədalət bərpa edildi.

ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğunun nəzdində fəaliyyət göstərən Türkoloji Mərkəzin Türk tarixi bölməsinin müdiri, dosent Dəyanət Musayev Azərbaycan Xalq Cümhuriyyəti dövrü və onun fəaliyyəti ilə bağlı məruzə ilə çıxış edib. Məruzədə bu dövrün milli dövlətçilik tarixində tutduğu yer, həyata keçirilən islahatlar və parlamentli idarə üsulu haqqında ətraflı məlumat verilib.

Tədbirin növbəti hissəsində ADPU-nun Fəlsəfə və sosial elmlər kafedrasının müdiri professor Rafail Əhmədli "Mühacirət dövrü" haqqında məruzə ilə çıxış edib. Professor bildirib ki, 1920-ci ildə Cümhuriyyətin süqutundan sonra xaricə üz tutmuş ziyalılarımız istiqlal ideallarını yaşatmaq və dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm fəaliyyət göstəriblər. Professor çıxışında bu dövrü yalnız bir siyasi mübarizə deyil, eyni zamanda mədəni və ideoloji davamlılıq mərhələsi kimi xarakterizə edib.

Konfrans təqdim edilən məruzələr ətrafında müzakirələrlə davam edib.

ADPU-da "Azərbaycan dilçiliyi XXI yüzillikdə: reallıqlar, perspektivlər" Respublika elmi-praktik konfransı keçirilib



Mayın 26-da ADPU-nun Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının təşkilatçılığı ilə "Azərbaycan dilçiliyi XXI yüzillikdə: reallıqlar, perspektivlər" adlı Respublika elmi-praktik konfransı keçirilib.

Konfransın açılışında ADPU-nun və Filologiya fakültəsinin rəhbərliyi, fakültənin professor-müəllim heyəti, eləcə də digər ali təhsil və elmi-tədqiqat müəssisələrinin əməkdaşları iştirak ediblər.

Tədbiri giriş sözü ilə ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova açaraq, iştirakçıları salamlayıb, konfransın əhəmiyyətindən və Azərbaycan dilçiliyinin aktual məsələlərinin müzakirə olunmasının zəruriliyindən bəhs edib.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri Sayalı Sadıqova, Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının müdiri professor Həcər Hüseynova, Müasir Azərbaycan dili kafedrasının dosenti Yeganə Qəhrəmanova Azərbaycan dilçiliyinin aktual problemləri ilə bağlı məruzə ediblər.

Konfrans öz işini "Dövlət, dil və dilçilik", "Nəzəri dilçilik problemləri", "Tətbiqi dilçiliyin müasir problemləri və inkişaf istiqamətləri" və "Tarixi-müqayisəli dilçilikdə müasir yanaşmalar" adlı bölmələrdə əyani və onlayn şəkildə davam etdirib.

ADPU-nun qəbul planı artıb - 2705 plan yeri ayrılıb



Mayın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Elmi Şurasının növbəti iclası keçirilib. İclası giriş sözü ilə açan Elmi Şuranın sədri, ADPU-nun rektoru professor Cəfər Cəfərov ötən iclasdan cari dövrədək universitet daxilində icra edilən layihə və tədbirlər, universitet əməkdaşlarının, həmçinin tələbələrinin yerli və beynəlxalq sferada əldə etdikləri nailiyyətləri barədə məlumat verib.

Əvvəlcə, uzun illər ADPU-nun tədris işləri üzrə prorektoru olmuş professor Məlikməmməd Cəbrayılovun 80 illik yubileyi münasibətilə prof. Cəfər Cəfərov yubliyara fəxri fərman təqdim edib, onun təhsil sahəsindəki uzunmüddətli səmərəli fəaliyyətindən söz açıb. Sonra prof. M.Cəbrayılov göstərilən diqqətə görə təşəkkür edib, öz təəssüratlarını bölüşüb. Universitet Həmkarlar İttifaqı Komitəsi tərəfindən ona xatirə hədiyyəsi təqdim olunub.

Rektor diqqətə çatdırıb ki, ötən dövr ərzində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci illiyi geniş şəkildə qeyd edilib, Fəxri xiyabana ziyarət təşkil olunub. Qeyd edilib ki, dövlət rəsmiləri və təhsil ictimaiyyətinin nüfuzlu şəxslərinin iştirakı ilə ali təhsil müəssisələri arasında ilk dəfə ADPU-da keçirilən "Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri" müsabiqəsinin II mövsümünün bağlanış və mükafatlandırma mərasimi keçirilib, "İlin gənc alimi və tədqiqatçısı" müsabiqəsinin qalibləri mükafatlandırılıb, universitetdə Xüsusi təhsil İşçilərinin I Beynəlxalq Forumu keçirilib, Türkiyə və Özbəkistanın ali təhsil müəssisələrinin təmsilçiləri universitetdə səfərdə olublar.

Prof. Cəfər Cəfərov ADPU-nun bakalavriat səviyyəsi üzrə təsdiq olunmuş qəbul planını Şura üzvlərinə təqdim edib. Qeyd edilib ki, növbəti tədris ili üçün Pedaqoji Universitetə ayrılmış plan yerlərinin sayı 2705-dir. Yeni tədris ilində 7 ixtisasda ingilis bölməsi, 11 ixtisasda rus bölməsində kadr hazırlığı davam etdiriləcək. Rektor qeyd edilən dövr ərzində elmi ad almış filologiya üzrə fəlsəfə doktoru Əntiqə Qəhrəmanovaya dosent attestatını, universiteti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş ali məktəb tələbələri arasında keçirilən Respublika Olimpiadasında uğurla təmsil edən tələbələrə isə təşəkkürnamələrini təqdim edib.

Daha sonra Tədris departamentinin direktoru dos. Sənan Əliyev 20242025-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasına hazırlıq və qarşıda duran vəzifələr barədə təqdimatla çıxış edib. S.Əliyev qeyd edib ki, yaz semestrinin imtahan sessiyası 2 iyun – 4 iyul 2025-ci il tarixləri aralığında keçiriləcək. Sessiyada 9344 bakalavr, 585 nəfər magistrant olmaqla ümumilikdə 10 min nəfərədək təhsilalanın iştirakı gözlənilir. Bakalavriat səviyyəsi üzrə Buraxılış Yekun Dövlət Attestasiyalarının 23 –2 4 iyun 2025-ci il, magistratura səviyyəsi üzrə isə 16 – 30 iyun 2025-ci il tarixlərində keçirilməsi nəzərdə tutulur. Hazırda imtahan sessiyasına hazırlıq işləri yekunlaşmaq üzrədir. Sonra Şura işini cari məsələlərin müzakirəsi ilə davam etdirib. Elm və innovasiyalar üzrə prorektor professor Asəf Zamanov Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Təhsildə menecment və yeni təlim texnologialari" Magistranların VIII Respublika elmi konfransının materiallarının nəşrinə icazə verilməsi, Tədris departamentinin direktoru dosent Sənan Əliyev dərs vəsaitlərinin nəşrinə icazə verilməsi barədə, Elmi katib r.ü.f.d. Nərminə Abdullayeva isə Kimya və biologiya fakültəsində, Şamaxı və Cəlilabad filiallarında yeni ixtisasların açılması ilə əlaqədar İşçi qrupunun yaradılması barədə təkliflərlə çıxış edib.

Sonda təklif edilən məsələlər səsə qoyularaq qəbul edilib.

"Müasir təhsildə innovasiya" mövzusunda panel müzakirəsi keçirilib



Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Enactus komandasının və INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzinin birgə təşkilatçılığı ilə "Müasir təhsildə innovasiya" mövzusunda panel müzakirəsi keçirilib.

Tədbirin əsas məqsədi təhsildə innovativ yanaşmaların əhəmiyyətini göstərmək, yeni texnologiyaların və metodların tətbiqinə dair fikir və təcrübə mübadiləsinə şərait yaratmaq olub. Panelin açılış mərasimində universitetin elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov, İnnovasiyalar Mərkəzinin direktor müşaviri Ləman Əhmədova, INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzinin müdiri Nicat Əmiraslanov və ADPU ENACTUS komandasının koordinatoru Zenfira Seyidova çıxış ediblər. Çıxışlarda təhsildə innovasiyaların rolu, tələbələrin bu sahədə bilik və bacarıqlarının inkişafı baxımından belə tədbirlərin əhəmiyyətindən danışılıb.

Panel müzakirəsinə İnnovasiyalar Mərkəzinin Layihələrin idarə edilməsi departamentinin müdir müavini Ziniddin Babayev moderatorluq edib. "Bilim Azərbaycan" layihəsinin rəhbəri Ahmet Köse, Sosiologiya Akademiyasının rəhbəri Mail Yaqub, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin Rəqəmsal iqtisadiyyat şöbəsinin rəhbəri Xəyalə Fətullayeva, "Enterprise Azerbaijan" portalının rəhbəri İsa Qasımov, ASAN İnnovativ İnkişaf Mərkəzinin Təlim üzrə baş mütəxəssisi Aytən Quliyeva-Rzayeva təhsildə rəqəmsal texnologiyaların tətbiqi, startap yanaşmaları, innovativ təlim metodları və gənclərin bu proseslərə cəlb olunması mövzularında çıxışlar ediblər. Tədbirin sonunda təlimlərdə fəal iştirak edən tələbələr ADPU Enactus komandasının rəhbəri Şahin Məmmədli və təlimlərin təşkili bölməsinin rəhbəri Aytac Abbasova tərəfindən sertifikatlarla təltif olunublar.

ADPU tələbələri 1 İyunu şəhid övladları ilə qeyd ediblər



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin daxilində fəaliyyət göstərən ADPU TV könüllü tələbə komandasının üzvləri Gülay İmanzadə və Ayşən Nağıyeva 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Vətən müharibəsinin qəhrəman şəhidlərindən olan mayor Ramid Hacıyev, baş leytenant Babək Allahverdiyev və I dərəcəli ədliyyə qulluqçusu Ruhin Xəlilovun ailələrini ziyarət ediblər. Ziyarət zamanı tələbələr şəhidlərin əziz xatirəsini ehtiramla yad edərək şəhid övladlarına oyuncaqlar və hədiyyələr təqdim edib, onlarla əyləncəli oyunlar keçirərək uşaqlara xoş anlar yaşadıblar.

Qeyd edək ki, şəhid mayor Ramid Hacıyev 11 fevral 1987-ci ildə Cəbrayıl rayonunun Mirək kəndində anadan olub. Vətən müharibəsində Ramid xüsusi qəhrəmanlığı ilə fərqlənib. R.Hacıyev 16 oktyabr 2020-ci ildə Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmanca şəhid olub.

1987-ci ildə doğulan Ruhin Xəlilov Ədliyyə Nazirliyinin İcra baş idarəsinə çalışıb və I dərəcəli ədliyyə qulluqçusu olub. Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq cəbhəyə yollanıb, Qubadlı rayonu ətrafında gedən döyüşlərdə mərdlik və şücaət göstərərək oktyabrın 21-də şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Babək Allahverdiyev Naxçıvan MR-in Şərur rayonunun Dəmirçi kəndində anadan olub. Vətən müharibəsinə baş leytanant kimi qoşulan B.Allahverdiyev Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı və Şuşa istiqamətində gedən ağır döyüşlərdə şücaətlə iştirak edib. Noyabrın 4-də Şuşanın azadlığı uğrunda gedən şiddətli döyuşdə şəhidlik zirvəsinə yüksəlib. "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib.

ADPU rektoru imtahanların gedişi ilə tanış olub



İyunun 2-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) yaz semestrinin imtahan sessiyasına start verilib. İyunun 4-də ADPU-nun rektoru professor Cəfər Cəfərov universitetdə yaz semestrinin imtahan sessiyasının gedişini izləyib.

Rektor yazılı və şifahi imtahanların gedişini yerində izləyib, imtahan prosesinin gedişini tənzimləmək, yarana biləcək problemlərin operativ həll olunması üçün yaradılmış İmtahan Qərargahı və Apelyasiya Komissiyasının işi, eyni zamanda imtahan nəticələrinin yoxlanılması prosesi ilə tanış olub.

ADPU Özbəkistanda keçirilən "Study in Azerbaijan" sərgisində iştirak edib



27-31 may tarixlərində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və ali təhsil müəssisələrinin rəhbər heyətinin Özbəkistana səfəri çərçivəsində Daşkənd şəhərində "Study in Azerbaijan" təhsil sərgisi keçirilib.

Tədbirdə Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) də təmsil olunub. Universiteti bu nüfuzlu sərgidə ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov, Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri Turan Kərimli, Tarix və coğrafiya fakültəsinin dekan müavini Paşa Quluzadə və ADPU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Cəmilə Qurbanova təmsil ediblər. Onlar sərgi iştirakçılarına ADPU-nun tədris imkanları, beynəlxalq proqramlarda iştirakı, tələbə həyatı, təqaüd mexanizmləri və xarici tələbələr üçün təqdim edilən fürsətlər barədə ətraflı məlumat veriblər.

Sərginin açılış mərasimində Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Şahrux Daliyev, Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini İdris İsayev və ölkəmizin Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev çıxış edərək, elm və ali təhsilin beynəlmiləlləşməsi kontekstində Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Onlar bu kimi təşəbbüslərin təhsil və mədəni əlaqələrin genişlənməsinə töhfə verəcəyini bildiriblər.

"Study in Azerbaijan" sərgisində ümumilikdə ölkəmizi 17 ali təhsil müəssisəsi təmsil edib. ADPU nümayəndələrinin fəal iştirakı universitetin beynəlxalq əlaqələrinin inkişafına və xarici tələbələr üçün cəlbediciliyinin artırılmasına xidmət edən önəmli addım kimi dəyərləndirilir.

Qeyd edək ki, sərginin əsas məqsədi mədəniyyətlərarası dialoqu gücləndirmək, tələbə mübadiləsini təşviq etmək və Azərbaycanda təhsil alan xarici tələbələrin sayını artırmaqdır. ADPU sərgidə bu istiqamətdə gələcək əməkdaşlıqlara açıq olduğunu və beynəlxalq səviyyədə təmsilçiliyini daha da gücləndirmək niyyətində olduğunu bir daha nümayiş etdirib.

XI Beynəlxalq Təhsil və İnnovativ Elmlər Konqresi keçirilib



İyunun 12-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) ADPU və Türkiyə İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun (İKSAD) birgə təşkilatçılığı ilə keçirilən XI Beynəlxalq Təhsil və İnnovativ Elmlər Konqresi öz işinə başlayıb. İki gün davam edəcək tədbirə 10 ölkədən – Azərbaycan, Türkiyə, Hindistan, Əlcəzair, Rumıniya, Polşa, Səudiyyə Ərəbistanı, Portuqaliya, Anqola və Qanadan elm və təhsil mütəxəssisləri qatılıb.

Konfransda açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov bildirib ki, konqres müasir təhsil sisteminin qarşısında duran çağırışların müzakirəsi və yeni həll yollarının formalaşdırılması baxımından əhəmiyyətli platformadır. Rektor bildirib ki, təhsilin yalnız daxili deyil, həm də beynəlxalq ölçüdə düşünülməsi vacibdir və bugünkü qloballaşan dünyada elm adamlarının birgə işləməsi, təcrübə mübadiləsi aparması, eyni zamanda ortaq elmi nəticələr əldə etməsi son dərəcə önəmlidir. Qeyd edilib ki, belə beynəlxalq tədbirlər tədqiqatçıların qarşılıqlı öyrənmə prosesini gücləndirir, innovativ yanaşmaların tətbiqini stimullaşdırır və elmi biliklərin yayılmasında körpü rolu oynayır. Konqresin işinə uğurlar arzu edən C. Cəfərov onu da bildirib ki, konqresə dünyanın müxtəlif ölkələrindən qatılan alimlərin iştirakı Azərbaycan elminin dünya elminə inteqrasiya səviyyəsinin bariz nümunəsidir. O, tədbirdə təqdim olunacaq məruzələrin və keçiriləcək elmi diskussiyaların təhsil siyasətinə və tətbiqi sahələrə də mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov çıxışında tədbirin elmi potensialından bəhs edərək bildirib ki, XXI yüzillikdə biliklər iqtisadiyyatının sürətli inkişafı informasiya cəmiyyətinin formalaşması,süni intellekt texnologiyalarının coğrafiyasının genişlənməsi təhsil və elm sahəsində də fundamental dəyişiklikləri zərurətə çevirir. Onlayn təhsil platformaları,süni intellekt əsaslı təlim köməkçiləri, artırılmış və virtual reallıq (VR/AR) texnologiyaları,data analizinə əsaslanan qiymətləndirmə modelləri, Gamifikasiya və interaktiv öyrənmə metodları kimi imkanların müasir təhsildə geniş istifadəsinin vacibliyini diqqətə çatdıran prorektor bu texnologiyaların yalnız öyrənmə prosesini daha maraqlı və əhatəli etmədiyini,eyni zamanda fərdi yanaşmaların təmin edilməsinə imkan yaratdığını bildirib. A.Zamanov qeyd edib ki, süni intellekt əsaslı Milli Rəqəmsal Təhsil Platformasının yaradılması, virtual və artırılmış reallıq əsaslı laboratoriyaların təbiət və texniki fənlər üzrə tətbiqi, müəllimlər üçün rəqəmsal mentorluq proqramlarının genişləndirilməsi və şagirdlər arasında kodlaşdırma, robototexnika və data analizinə marağın artırılması üçün müsabiqələrin təşkili artıq zərurətə çevrilib. Qeyd edilib ki, bu istiqamətlər üzrə dünya təcrübəsinin öyrənilməsi, beynəlxalq əməkdaşlığın artırılması vacibdir və keçirilən konqres bu baxımdan vacib əhəmiyyət daşıyır. Elmi-Tədqiqat Mərkəzinin direktoru dosent Ərəstun Mehdiyev və İKSAD başqanı Mustafa Latif çıxışlarında konqresin təşkilati və elmi əhəmiyyətindən danışaraq qeyd ediblər ki, bu cür beynəlxalq tədbirlər elmi ideyaların mübadiləsi, tədqiqat nəticələrinin təqdimatı və yeni əməkdaşlıq imkanlarının yaradılması baxımından əvəzsizdir.

Konqres çərçivəsində iştirakçı ölkələrin alimlərin iştirakı ilə eyni vaxtda həm üzbəüz, həm də onlayn formatda paralel sessiyalar təşkil olunub. Təqdimatlar müxtəlif zal və bölmələrdə moderatorların rəhbərliyi ilə həyata keçirilib.

Konqresdə süni intellektin təhsildə tətbiqi, inklüziv təhsil, sosial media və gənclərin psixoloji rifahı, STEAM texnologiyaları, davamlı inkişaf, dil və tarix təliminin metodikası, ədəbiyyatın müasir təhlili, biomüxtəliflik, urbanizasiya və digər aktual mövzularda məruzələr təqdim olunub.

Siyasi Olimpə qayıdış: Milli Qurtuluş Günü"



Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş dəyirmi masa keçirilib.

Heydər Əliyev Mərkəzinin əməkdaşı Tərlan Ağayevin moderatorluq etdiyi tədbir Ulu Öndərin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü yolunda şəhid olmuş həmvətənlərimizin xatirəsinin yad edilməsi ilə başlayıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Tədbirin açılışında çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov Milli Qurtuluş Gününün müasir Azərbaycan tarixində müstəsna yer tutduğunu vurğulayıb. Rektor qeyd edib ki, Heydər Əliyev ölkəmizi zamanın çətin sınaqlarından çıxararaq sabitliyə, dirçəliş və tərəqqiyə doğru aparmış dahi şəxsiyyətdir. Ulu Öndər rəhbərliyinin birinci dövründə –1969-1982-ci illərdə Azərbaycanı müstəqilliyə aparacaq yolun ilkin təməlini formalaşdırmış, totalitar sistemin hökm sürdüyü bir şəraitdə uzunmüddətli gələcəyə hesablanan strateji əhəmiyyətli qərarlar qəbul etmişdir. SSRİ-nin ali idarəçilərindən biri kimi Moskvada işlədiyi 1982-1987-ci illərdə də Heydər Əliyev Azərbaycanı heç zaman unutmamış, tutduğu yüksək vəzifənin imkanlarından doğma xalqının rifahı və tərəqqisi naminə istifadə etmişdir. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli Lider vətəndaş müharibəsi həddinə çatmış ölkəni qısa müddətdə sabitləşdirərək demokratik və hüquqi dövlət, vətəndaş cəmiyyəti və dayanıqlı iqtisadiyyat quruculuğunun bünövrəsini qoymuşdur. Cəmiyyət həyatının bütün sahələrində həyata keçirilən köklü islahatlar nəticəsində ölkədə davamlı ictimai-siyasi sabtlik bərqərar olmuş, iqtisadi dirçəliş başlanmış, xalqın gələcəyə inamı bərpa olunmuşdur. Bütün bunlara görə xalqımız Ulu Öndərin xatirəsini həmişə uca tutur, əvəzsiz xidmətlərini heç vaxt unutmur, yenidən hakimiyyətə gəldiyi günü – 15 İyunu hər il yüksək səviyyədə qeyd edir. "Heydər Əliyev - müstəqil Azərbaycanın memarıdır" mövzusunda çıxış edən Azərbaycan tarixi kafedrasının müdiri dosent Naibə Əhmədova Ulu Öndərin 1993-2003-cü illərdəki çoxşaxəli fəaliyyətinin müxtəlif aspektlərindən, onun zəngin siyasi irsinin əhəmiyyətindən danışıb. Sonra Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunmuş "Heydər Əliyev- Azərbaycandır" sənədli filmi nümayiş olunub. Elmi-təşkilati şöbənin müdiri, f.e.d., professor İbrahim Bayramov "Azərbaycan dilinin inkişafına Heydər Əliyev qayğısı" mövzusunda çıxış edərək, dilimizin qorunması, zənginləşdirilməsi, dövlət dili statusu alması, dilçi alimlərin fəaliyyətinin stimullaşdırılması kimi məsələlərdən bəhs edib. Tarix və coğrafiya fakültəsinin dekan müavini Elvira Kərimova isə öz çıxışında Heydər Əliyevin rəhbərliyinin hər iki dövründə Azərbaycan təhsilinin inkişafı sahəsində həyata keçirilən tədbirlərə toxunub. Tədbirin bədii hissəsində "Adınla yaşayır Azərbaycan" mahnısı video formatında nümayiş olunub. "Gənclər siyasəti - ön planda" mövzusunda çıxış edən ADPU Yeni Klubunun rəhbəri Məleykə İsmayılova Ulu Öndərin gənclərə göstərdiyi diqqət və qayğıdan danışıb. Tədbirdə həmçinin universitetdə artıq ənənəyə çevrilmiş "Heydər Əliyev dərsləri" barədə hesabat təqdim olunub. Bildirilib ki, bu dərslər Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, 2023-cü ilin ilk aylarından etibarən keçirilir və bu gün də birinci kurs tələbələri arasında davam etdirilməkdədir. Təqdimatın sonunda "Heydər Əliyev dərsləri"nin təşkilinə yaxından dəstək göstərmiş universitet əməkdaşları -Tarix və coğrafiya fakültəsinin dekan müavini Elvira Kərimova, Filologiya fakültəsinin dekan müavini Gülər Süleymanova və Fizika fakültəsinin tyutoru Aytac Orucova "Təşəkkürnamə" ilə təltif olunublar. Mükafatları rektor Cəfər Cəfərov təqdim edib.

ADPU ilk dəfə "Times Higher Education (THE) Impact Rankings"də yer alıb



Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ilk dəfə nüfuzlu "Times Higher Education (THE) Impact Rankings" siyahısına daxil olub. Bu nəticə universitetin dayanıqlı inkişaf sahəsində həyata keçirdiyi fəaliyyətlərin beynəlxalq səviyyədə tanındığını təsdiqləyir. Times Higher Education tərəfindən hazırlanan bu reytinq sistemi universitetlərin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (Sustainable Development Goals – SDGs) uyğun fəaliyyətlərini qiymətləndirir. Qiymətləndirmə meyarlarına ali təhsilin keyfiyyəti, bərabər imkanların yaradılması, innovasiyalar, sağlamlıq və rifah, sənaye əməkdaşlığı kimi sahələr daxildir. Reytinq ali təhsil müəssisələrinin yalnız akademik nailiyyətlərinə deyil, həm də cəmiyyətə, iqtisadiyyata və ekoloji davamlılığa verdiyi töhfəyə əsaslanır.

Liderlik proqramlarının bağlanış mərasimi keçirilib

İyunun 17-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və Pedaqoji Universitetin Strateji İnkişaf Mərkəzinin (ADPU SİM) birgə həyata keçirdiyi "Məktəbəqədər təhsildə liderlik" proqramının I çağırışı və "Məktəb liderliyi" proqramının II çağırışı üzrə bağlanış mərasimləri keçirilib. Tədbirdə dövlət rəsmiləri, universitet rəhbərliyi və sturuktur rəhbərləri, təhsil ictimaiyyətinin nümayəndələri və proqramların məzunları iştirak ediblər. Əvvəlcə vətənin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ruhları bir dəqiqəlik sükutla yad edilib, daha sonra ADPU-nun İncəsənət və fiziki tərbiyə fakültəsinin xor kollektivinin ifasında Dövlət Himni səsləndirilib. Daha sonra Tofiq Quliyevin "Sevinc mahnısı" ifa olunub.

Mərasimi giriş sözü ilə açan ADPU-nun rektoru professor Cəfər Cəfərov qeyd edib ki, liderlik bacarığı bu gün təhsildə ən çox ehtiyac duyulan, eyni zamanda böyük məsuliyyət tələb edən anlayışdır. Xüsusilə təhsil müəssisələrində liderlər, sadəcə sahə üzrə mütəxəssis deyil, eyni zamanda ilhamverici, çevik qərar verən, ortaq vizyon yaradan və insanları bu vizyona inandıran şəxsiyyətlər olmalıdırlar və bu proqramlar, sadəcə idarəetmə bacarıqlarına sahib şəxsləri deyil, təhsil müəssisələrində dərin düşüncə ilə liderlik edəcək, dəyişimi yönləndirəcək və inkişafı davamlı edəcək şəxsləri yetişdirməyi qarşısına məqsəd qoyub. Təhsil liderinin müəssisənin bütün maraqlı tərəfləri ilə düzgün kommunikasiya qurmağı bacarmalı, yeri gəldikdə çevik qərar verməli, liderlik etdiyi qurumda insanları ortaq vizyona inandırmalı və bu vizyona çatmaq üçün onları səfərbər etməli olduğunu vurğulayan rektor XXI əsrin təhsil liderlərinin ərsəyə gəlməsində sahə bilikləri ilə yanaşı, məhz "Məktəb liderliyi" və "Məktəbəqədər təhsildə liderlik" proqramları kimi layihələrin həyata keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib.



Çıxış edən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli proqram iştirakçılarının əldə etdikləri nəzəri və praktik biliklərin gələcək fəaliyyətlərində mühüm rol oynayacağına əminliyini ifadə edib, onları qarşıda gözləyən vəzifələrdə uğurlar diləyib. Qeyd edilib ki, həm məktəbəqədər təhsil, həm də ümumi təhsil ölkənin intellektual potensialının formalaşdığı baza mərhələləridir. Bu sahələrin gücləndirilməsi, burada çalışan pedaqoji və idarəçi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi dövlətin uzunmüddətli inkişaf strategiyasının əsas tərkib hissəsidir. Nazirlik tərəfindən bu istiqamətdə aparılan işlərdən danışan M.Kərimli diqqətə çatdırıb ki, müəllimlərin sertifikasiyaya cəlbi prosesi uğurla davam edir. Bu il 20 min müəllimin bu prosesə cəlbi nəzərdə tutulub, indiyədək isə ümumilikdə 63 min müəllim sertifikasiyadan keçib. Cari ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak üçün 70 minədək müəllim qeydiyyatdan keçib.



Aparat rəhbəri onu da qeyd edib ki, bu proqramlar vasitəsilə təhsil rəhbərləri müasir idarəetmə bacarıqları ilə yanaşı, liderlik mədəniyyəti, sosial emosional dəstək və komandaların qurulması sahəsində də ciddi bilik və vərdişlər qazanırlar. Bu isə birbaşa təhsil müəssisələrinin daxili mühitinə, tədrisin keyfiyyətinə təsir göstərir.

Daha sonra hər iki proqramın iştrakçısı olmuş və məktəbəqədər və ümumtəhsil müəssisələrində rəhbər vəzifələrdə çalışan məzunlar proqramla bağlı təəssüratlarını bölüşüblər. Mərasim məzunların təltif edilməsi ilə davam edib. Qeyd edək ki, "Məktəbəqədər təhsildə liderlik" proqramının I çağırışı üzrə 100 nəfər, "Məktəb liderliyi" proqramının II çağırışı üzrə isə 121 nəfər olmaqla, ümumilikdə 221 nəfər məzun olub. Tədbirin bədii hissəsində tələbələrin ifasında müxtəlif ifalar və kompozisiyalar təqdim olunub.

Gələcəyin müəllimləri məzun oldu – ADPU-da Məzun Günü



İyunun 20-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Məzun Günü" keçirilib. Mərasimdə universitet rəhbərliyi, struktur rəhbərləri, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi, məzun olan tələbələr və onların ailə üzvləri iştirak ediblər. Vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin ifa olunması ilə başlayan mərasimdə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov məzunları təbrik edərək vurğulayıb ki, dövrümüzdə müəllim yalnız bilik ötürən deyil, öyrənən, yenilənən, texnologiyalarla ayaqlaşan şəxsdir. Bu yolun əsas dayaqları kimi milli dəyərlərə sadiqlik, peşə səriştəsi, daim yenilənən bilik və bacarıqlar, rəqəmsal və dil kompetensiyaları ön plana çıxır.

Rektor qeyd edib ki, Pedaqoji Universitet müasir təhsilin tələblərini nəzərə alaraq bu yöndə davamlı işlər aparır, mövcud ixtisaslaşmaların təkmilləşdirilməsini həyata keçirir. Bu gün ADPU-da Azərbaycan, rus və ingilis bölmələri üzrə çoxşaxəli tədris həyata keçirilir, yeni ixtisaslar üzrə qəbul planı hər il yenilənir. Növbəti tədris ili üçün də qəbul planı artaraq bakalavriat səviyyəsində 2705 yerə (filialllarla birgə 3605), magistratura səviyyəsində isə 608 yerə çatıb.

Bu il universitetimizdən filallar və Pedaqoji Kollec da daxil olmaqla ümumilikdə 4400-dən çox təhsilalanın məzun olması gözlənilir. Sevindirici haldır ki, bakalavr məzunlarımızdan 1353 nəfər magistraturaya ixtisas seçimi hüququ əldə ediblər. 50 məzun xarici ölkələrin nüfuzlu universitetlərinə magistratura təhsili üçün müraciət edib və bu say artmaqdadır. Çıxış edən Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə də gənc müəllimləri təbrik edərək, onlara gələcək peşə fəaliyyətlərində uğurlar arzulayıb, cəmiyyətimizin gələcəyinin onların fədakar fəaliyyəti ilə üzvi surətdə bağlı olduğunu diqqətə çatdırıb. Sonra universitetdə təhsil aldığı müddət ərzində yüksək akademik göstəriciləri və ictimai fəaliyyəti ilə fərqlənən bir qrup məzun Fəxri Fərmanla təltif olunub.

Bədii hissədə gənclərin sevimlisi olan müğənnilərdən Hiss (Röya Məmmədova), Mərdan Kazımov, Cavidan Fatihi və "Ayna Band" qrupunun ifaları "Məzun Günü"nə xüsusi aura qatıb.

Prorektor gələcək təhsil liderləri ilə görüşüb



İyunun 21-də Azərbaycam Dövlət Pedaqoji Universitetinin (ADPU) sosial və humanitar məsələlər üzrə prorektoru, müsabiqənin Təşkilat Komitəsinin üzvü professor Fikrət Rzayev "Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri" müsabiqəsinin II mövsümünün qalibləri ilə görüşüb. Görüşdə layihənin İşçi qrupunun rəhbəri, Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri Turan Kərimli, layihə rəhbəri, İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyev, layihənin koordinatoru Məhəmməd İsrayılzadə, könüllülərlə iş üzrə məsul şəxs İsmayıl Nəsirov, İşçi qrupunun üzvü Tərlan Ağayev və müsabiqənin qaliblər iştirak ediblər.

Görüşdə çıxış edən professor Fikrət Rzayev keçirilən müsabiqənin tələbələrin potensialının üzə çıxarılması və onların peşəkar kadr kimi formalaşması baxımından vacib bir platforma təqdim etdiyini bildirib. O, çıxışında müsabiqənin əhəmiyyətinə toxunaraq, bu təşəbbüsün gənclərin intellektual və idarəetmə potensiallarının üzə çıxarılması və onların peşəkar bacarıqlarının inkişaf etdirilməsi baxımından xüsusi rol oynadığını bildirib. Qeyd edilib ki, bu tipli layihələr tələbələrin bilik və bacarıqlarını nümayiş etdirmələri üçün əlverişli mühit yaratmaqla yanaşı, onların gələcək karyera yollarına doğru atdıqları mühüm bir addımdır. Prof. F.Rzayev çıxışının sonunda qaliblərə mentorluq proqramında uğurlar arzulayaraq, onlara bu vacib fürsətdən səmərəli istifadə etməyi, aktiv və təşəbbüskar olmağı tövsiyə edib, bu kimi layihələrin universitetin təhsil strategiyasının tərkib hissəsi olduğunu və tələbələrin hərtərəfli inkişafını hədəflədiyini xüsusi vurğulayıb. Layihə rəhbəri, ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyev bildirib ki, ümumilikdə 800 nəfərədək tələbənin iştirak etdiyi müsabiqədə 3 mərhələdən sonra qalib adını qazanan 10 nəfər tələbə 1000 AZN məbləğində pul mükafatı ilə təltif olunmaqla yanaşı, ADPU-nun rəhbər heyətinin də daxil olduğu Təşkilat Komitəsinin üzvlərinin birbaşa iştirakı ilə formalaşdırılan mentorluq proqramına cəlb olunmaq şansı qazanıblar. Yeni tədris ilinin əvvəlindən mentorluq proqramına start veriləcəyini bildirən T.Mirzəyev qalibləri bu mərhələdə təşəbbüskar və aktiv olmağa çağırıb, növbəti mentorluq proqramı ilə bağlı tətbiqi nəzərdə tutulan yeniliklər barədə məlumat verib. Sonda qaliblərin müsabiqə barədə təəsüratları dinlənilib, müsabiqə qaydalarının təkmilləşdirilməsi istiqamətində təklifləri dəyərləndirilib, suallar cavablandırılıb.

ADPU-da ictimaiyyətlə əlaqələrin 6 ayı – 12 milyonadək baxış, 25.000 müraciət

2025-ci ilin geridə qalan 6 ayı Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) media fəaliyyəti yüksək dinamik inkişafla yadda qalıb.

Geridə qalan dövr ərzində universitetin İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi tərəfindən universitetin tədris və ictimai-sosial həyatında baş verən yeniliklər, layihə və tədbirlər ADPU-nun rəsmi saytı, sosial media səhifələri və digər kommunikasiya kanalları vasitəsilə mütəmadi olaraq tirajlanıb, aparıcı KİV-lər, telekanallar, habelə, elektron və çap mediasında işıqlandırılıb, ADPU-nun mətbu orqanı olan "Gənc müəllim" qəzeti çap və elektron qaydada dərc olunaraq yayımı həyata keçirilib. Həmçinin şöbə tərəfindən mütəmadi olaraq KİV-dən daxil olan sorğu və müraciətlər cavablandırılıb, universitet əməkdaşları və tələbələrin məqalə və çıxışlarının nüfuzlu media orqanlarında dərc edilməsinə dəstək göstərilib, müxtəlif məzmunlu açıqlama və müsahibələr təqdim edilib. Şöbə tərəfindən universitetin sosial media hesabları, elektron poçt ünvanı və əlaqə nömrələri vasitəsilə tələbə və vətəndaşlardan daxil olan 25.000-dək müraciət cavablandırılıb ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 13% artım deməkdir. Yarımil ərzində Pedaqoji Universitetlə bağlı məlumatları özündə əks etdirən 321 xüsusi əhəmiyyətli xəbər 2561 mənbədə dərc edilib. Bu da onu deməyə əsas verir ki, yayımlanan hər bir xəbər orta hesabla təxminən 8 fərqli mənbədə dərc edilib. Ötən ilin müvafiq dövründə bu say 5 mənbəyə bərabər olub. Şöbə tərəfindən aparılan informasiya yayımının optimallaşdırılması siyasəti nəticəsində fakültə və sturukturlardan daxil olan lokal əhəmiyyətli xəbərlər fakültə və filialların saytında yayımlanır, xüsusi əhəmiyyətə malik xəbərlər isə universitetin rəsmi saytı ilə yanaşı nüfuzlu informasiya agentliklərində də dərc edilir. İnformasiya yayımı istiqamətində daha bir vacib yenilik isə xəbərlərin Azərbaycan dili ilə yanaşı ingilis dilində də yayımlanmasıdır. Belə ki, şöbə tərəfindən yayımlanan xəbərlər universitetin rəsmi saytının ingilisdilli versiyasında da paylaşılır, eləcə də ingilisdilli xəbər yayımı həyata keçirilən KİV subyektlərində tirajlanır.

Hesabat dövrü ərzində universitetin rəsmi sosial media hesablarının fəaliyyətində yüksək artım dinamikası qeydə alınıb. Universitetin rəsmi feysbuk səhifəsində paylaşılan məlumatlara 6 ay ərzində 2,8 milyon dəfəyə yaxın baxılıb ki, bu göstərici 2024-cü ilin 12 ayı üzrə ümumi baxış sayından 200.000 çox baxış deməkdir.

Universitetin rəsmi instaqram hesabında paylaşılan postlar 6 ay ərzində ümumilikdə 7,146 milyon nəfər tərəfindən izlənilib ki, bu say ötən ilin analoji dövrü ilə müqayisədə 3 dəfədən çox artım deməkdir və 2024-cü ilin 12 aylıq ümumi göstəricisi ilə təxminən eynidir. Səhifənin izləyici sayı hazırda 23700 nəfərdir və ötən ilin sonundan indiyədək izləyici sayı 4% artıb.

Rəsmi votsap kanalının hazırda 5000-dən çox izləyicisi var. Ötən ilin sonunda kanalın izləyici sayı 1000 nəfər idi və 6 ay ərzində izləyici sayında 5 dəfə artım qeydə alınıb. Kanalda paylaşılan xəbərlər yarımil ərzində 30.000-dək istifadəçiyə çatıb. Bundan əlavə universitetin rəsmi teleqram kanalı və linkedin səhifələri informasiya yayımında aktiv şəkildə iştirak edir. İlin ilk 6 ayı ərzində teleqram kanalında paylaşılan məzmunlar 1 milyona yaxın, linkedin səhifəsində isə 61.500 dəfə izlənilib.

Cari ildən etibarən şöbə tərəfindən aparılan əsas islahatlardan biri də ənənəvi informasiya yayımı ilə




ADPU-DA İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN 6 AYI – 12 MİLYONADƏK BAXIŞ, 25.000 MÜRACİƏT

www.adpu.edu.az adpueduaz




www.adpu.edu.az adpueduaz




www.adpu.edu.az adpueduaz

yanaşı videoinformasiyayayımının da genişləndirilməsi olub. Bu istiqamətdə həyata keçirilən fəaliyyətlərdə "ADPU TV" könüllü komandası xüsusi fəaliyyət göstərilib. Komanda tərəfindən universitetdə həyata keçirilən vacib layihə və tədbirlər işıqlandırılıb, reportaj və müsahibələr universitetin rəsmi sosial şəbəkə hesabları və komandanın sosial şəbəkələrində paylaşılıb, tələbələr üçün maarifləndirici və əyləncəli kontentlər hazırlanıb. Bu istiqamətdə aparılan işlərin əməli nəticəsi kimi rəsmi yutub kanalının abunə sayı 6000 nəfərə çatıb. 6 ay ərzində kanalda yayımlanan videolar ümumilikdə 347.750 dəfə izlənilib və ötən ilin cari dövrü ilə müqayisədə 2 dəfədən çox artıma nail olunub. 6 ay ərzində universitetin rəsmi instaqram hesabında (1,42 milyon), "ADPU TV" instaqram hesabında (571.367) və yutub kanalında, eyni zamanda digər sosial şəbəkələrdə yayımlanan videolar daxil olmaqla ADPU barədə videolar 6 ay ərzində 3 milyon nəfərdən çox istifadəçi tərəfindən izlənilib. Şöbə tərəfindən hesabat dövrü ərzində, həmçinin universitetin istedadlı tələbələrini aşkar edərək onların peşəkar inkişafına dəstək olmaq və gələcək kadr bankı formalaşdırmaq məqsədilə ADPU və onun filiallarının bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələr üçün keçirilən "Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri" müsabiqəsinin II mövsümü uğurla təşkil edilib. 800-ə yaxın tələbə-gəncin iştirak etdiyi müsabiqənin yekununda 10 nəfər tələbə qalib olaraq 1000 AZN pul mükafatı, "bp Azərbaycan"dan hədiyyələr və Təşkilat Komitəsinin üzvü olan ADPU-nun rəhbər heyəti ilə 1 illik mentorluq proqramından faydalanmaq şansı əldə ediblər. Dövlət rəsmiləri və təhsil ictimiamiyyəti nümayəndələrinin iştirakı ilə layihənin təntənəli bağlanış mərasimi keçirilib. Növbəti tədris ilinin əvvəlindən qaliblər üçün mentorluq proqramına start veriləcək.

ADPU-nun builki məzunlarından 1187 nəfər magistraturaya qəbul olma şansı qazanıb



İyulun 18-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Elmi Şurasının növbəti iclası keçirilib.

İclası giriş sözü ilə açan ADPU-nun rektoru professor Cəfər Cəfərov keçən dövrdə universitetdə həyata keçirilən tədbirlər, əməkdaşlar və tələbələrin qazandığı uğurlar barədə məlumat verib. Rektor qeyd edib ki, cari dövr ərzində "Code for Future" layihəsi və "Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri" müsabiqəsinin yekun tədbirləri keçirilib, universitet XI Beynəlxalq Təhsil və İnnovativ Elmlər Konqresi və "Regionlarda elm və təhsilin keyfiyyətinin yaxşılaşdırılması" Respublika konfransına təşkilatçılıq və ev sahibliyi edib, həmçinin əməkdaşların inkişafına xidmət edən bir sıra təlim və layihələr həyata keçirilib. C.Cəfərov universitetin beynəlxalq əlaqələrinin inkişafından danışaraq qeyd edib ki, universitet qeyd edilən dövr ərzində Özbəkistanda keçirilən Azərbaycan təhsil sərgisində təmsil olunub, Qazaxıstan, Özbəkistan və Türkiyənin bir sıra universitetləri ilə ADPU arasında əməkdaşlıq müqavilələri imzalanıb, Pedaqoji Universitet ilk dəfə "Times Higher Education (THE) Impact Rankings" siyahısına daxil olub. Daha sonra rektor elmi ad və dərəcələr alan əməkdaşlara müvafiq sənədləri təqdim edib. Filologiya elmləri doktoru Könül Səmədovaya professor attestatı, Filologiya fakültəsinin əməkdaşı Bənövşə Əsgərova və Şamaxı filialının əməkdaşı Şəlalə Seyidovaya fəlsəfə doktoru diplomları təqdim edilib. Tədris departamentinin direktoru dosent Sənan Əliyev ADPU-da 2024/2025-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının nəticələri barədə məruzə ilə çıxış edib. Qeyd edilib ki, sessiya ərzində təşkil edilən 2972 imtahanda 10.085 bakalavr, 443 nəfər magistrant olmaqla, 10.528 nəfər təhsilalan iştirak edib. Proses ərzində yaradılmış İmtahan Qərargahına 86 müraciət daxil olub ki, onlardan 27-si təsdiqini tapmayıb, 59 hal isə təsdiqlənib və müraciətçinin lehinə həll edilib. İmtahan nəticələrinə yenidən baxılması üçün Apellyasiya Komissiyasına 1600 ərizə daxil olub. Müraciətlərin 32 faizi tələbələrin xeyrinə həll edilib. Müraciət edənlərdən 45 faizinin cari imtahan nəticəsi qüvvədə saxlanılıb, müraciətlərin 23 faizi isə qəbul edilməyib. S.Əliyev, həmçinin universitet və fakültələr üzrə müvəffəqiyyət və keyfiyyət göstəricilərinin təhlilini Şura iştirakçılarına təqdim edib. Qeyd edilib ki, bakalavriat səviyyəsi üzrə orta müvəffəqiyyət göstəricisi 85 faizə, keyfiyyət göstəricisi isə 50 faizə bərabər olub. Magistratura səviyyəsi üzrə isə bu rəqəmlər müvafiq olaraq 97.1 faiz və 71.7 faizə bərabərdir. Sonuncu tədris ili tələbələrinin təcrübələrinin yekunları barədə danışan dos. S.Əliyev vurğulayıb ki, bakalavriat səviyyəsi üzrə hesabat təqdimatına buraxılan 2242 tələbədən 2192 nəfəri müvəffəq qiymət alaraq təhsilini başa vurub. Yekun dövlət attestasiyasına buraxılan 30 tələbədən 25-i attestasiyadan uğurla keçib. Daha ADPU-nun filiallarında keçirilən imtahan sessiyasının nəticələri dəyərləndirilib. Sonra elm və innovasiyalar üzrə prorektor professor Asəf Zamanov magistrantların dissertasiya işlərinin müdafiəsinin yekunları ilə bağlı hesabatla çıxış edib. Prof. A.Zamanov qeyd edib ki, II tədris ili magistrantlarının dissertasiya işlərinin müdafiəsi 17 iyun – 30 iyun tarixləri aralığında təşkil edilib. Vurğulanıb ki, cari tədris ilində ADPU-nun magistratura səviyyəsindən ümumilikdə 401 nəfər məzun olub ki, bunlardan 37 nəfəri ADPU-nun ABŞ-nin Corc Vaşinqton Universiteti ilə həyata keçirdiyi ikili diplom proqramının, 26 nəfəri SABAH magistraturalarının, 85 nəfəri MBA proqramlarının, 253 nəfəri isə digər ixtisaslaşmaların payına düşür. Prorektor bildirib ki, MBA proqramı üzrə məzun olanlardan 22 nəfəri dissertasiya işi müdafiə edib. Ümumilikdə isə 302 magistrant dissertasiya müdafiəsində iştirak edib ki, onların 301 nəfərinin elmi işləri müdafiədən uğurla keçib. Yekunda prof. A.Zamanov dissertasiya işlərinin tərtibi qaydaları ilə bağlı təklif və tövsiyyələrini təqdim edib. Tədris işləri üzrə prorektor dos. Eldar Aslanov çıxışında qeyd edib ki, Pedaqoji Universitetdən məzun olaraq magistratura səviyyəsinə qəbul imtahanlarında iştirak edən tələbələrdən 1187 nəfəri uğurlu nəticə göstərərək ixtisaslaşma seçimi mərhələsində iştirak etmək hüququ qazanıb. Ötən il bu göstərici 812 nəfərə bərabər olub ki, bu da 1 il ərzində 46 faizdən çox artım deməkdir. E.Aslanov "ADPU-da qrup nümayəndəsinin seçilməsi Qaydası"nın təsdiqi barədə təkliflə çıxış edib. Qeyd edilib ki, bu istiqamətdə vahid qaydanın qəbul edilməsi Azərbaycan universitetləri arasında ilkdir. Daha sonra iclas cari məsələlərin müzakirəsi ilə davam edib. Bu hissədə elmi monoqrafiya və dərs vəsaitlərinin çapa verilməsi, filialların Elmi Şuraları haqqında Əsasnamənin qəbulu, yeni ixtisas və ixtisaslaşmaların yaradılması istiqamətində təkliflər təqdim edilib. Sonda müzakirə edilən məsələlər səsə qoyularaq qəbul edilib.

ADPU ali təhsil müəssisələrinin sərgisində iştirak edib

İyulun 30-da Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda ali təhsil müəssisələrinin sərgisi start götürüb.
Sərgidə ölkəmizdə fəaliyyət göstərən 40-a yaxın dövlət və özəl ali təhsil müəssisəsi, həmçinin müxtəlif qurumların - Dövlət İmtahan Mərkəzi, Elm və Təhsil Nazirliyi, Tələbə Təhsil Kredit Fondu, "Abituriyent" jurnalı redaksiyası və otk.az onlayn sınaq imtahanı portalının stendləri ilə yanaşı Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) stendi də yer alır.

30 iyul - 1 avqust 2025-cü il tarixlərini əhatə edəcək sərgidə abituriyentlər, valideynlər və digər iştirakçılar Pedaqoji Universitetin stendində ADPU-nun nümayəndələri ilə birbaşa ünsiyyət quraraq ixtisaslar, tədris proqramları, maddi-texniki baza, təhsil haqqı, güzəştlər, təqaüd proqramları və digər məsələlərlə bağlı onları maraqlandıran suallara cavab ala bilərlər.Universitet əməkdaşları tərəfindən iştirakçılara Pedaqoji Universitet haqqında ətraflı məlumatlar verilir, ADPU-da qəbul aparılan ixtisaslar, tədris infrastrukturu, tələbə həyatı, təqaüd və güzəşt imkanları, mübadilə proqramları və s.-lə bağlı informasiyaların əks olunduğu məlumatlandırıcı broşür və bukletlər təqdim edilir. Sərginin ilk günündən ADPU-nun stendi ziyarətçilərin xüsusi marağına səbəb olub.





UĞUR" xüsusi təqaüd proqramı - Pedaqoji Universitetdən möhtəşəm fürsət!

ADPU-da yeni qəbul olunan tələbələr üçün "UĞUR" xüsusi təqaüd proqramı təsis edilib.

600 bal və daha yüksək nəticə ilə Azərbaycan Dövlət Pedaqoji Universitetini seçən ilk 10 nəfər tələbəyə ilk tədris ilinin birinci semestri ərzində aylıq 200 AZN dəyərində xüsusi "UĞUR" təqaüdü alacaqlar.

Qeyd edək "UĞUR" xüsusi təqaüd proqramı ən yüksək balla ADPU-ya qəbul olunaraq "Firudin bəy Köçərli" təqaüdü (1 il ərzində, aylıq 125 AZN) alan tələbədən sonrakı, 600 bal və daha yüksək nəticə ilə universitetə qəbul olunan ilk 10 nəfər tələbəyə veriləcək.



ADPU-nun Corc Vaşinqton Universiteti ilə ikili diplom proqramına qəbulun müsahibə mərhələsi keçirilib

Avqustun 25-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Amerika Birləşmiş Ştatlarının nüfuzlu ali təhsil müəssisələrindən olan Corc Vaşinqton Universiteti (CVU) ilə birgə həyata keçirdiyi ikili diplom magistr proqramına qəbul üçün müraciət etmiş magistrantların müsahibə mərhələsinə start verilib.

Müsahibələr CVU-nun Təhsil və İnsan İnkişafı Məktəbinin dekan müavinləri Sevinc Məmmədova (CVU tərəfdən ikili diplom proqramının direktoru) və Natali Milman tərəfindən aparılır.

ADPU-nun rektoru professor Cəfər Cəfərov və tədris işləri üzrə prorektor dosent Eldar Aslanov müsahibələrin gedişi ilə tanış olublar.

Həftə ərzində davam edəcək müsahibə mərhələsinin nəticələrinə əsasən 15-30 arası magistrantın proqrama qəbul olunması gözlənilir.

Proqrama qəbul olunacaq tələbələr ADPU-nun "Təhsil menecmenti", CVU-nun isə "Təhsil siyasəti və insan inkişafı" ixtisasları üzrə magistr dərəcələrinə alacaqlar.


Qeyd edək ki, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" əsasında 2020-ci ildən etibarən uğurla həyata keçirilən proqramdan indiyədək 122 nəfər məzun olub.

Proqram tam şəkildə Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilir.





Pedaqoji Universitetin qəbul planı 99.7 faiz dolub





2025/2026-cı tədris ili üzrə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üzrə tələbə qəbulunun birinci turunun nəticələrinə əsasən Pedaqoji Universitetin (ADPU) 2705 plan yerindən 2696-sı dolub (99.7 faiz). Universitetdə müxtəlif bölmələr üzrə qəbul aparılan 42 ixtisasdan (Azərbaycan bölməsi üzrə 24, rus bölməsi üzrə 11, ingilis bölməsi üzrə 7) yalnız rus bölməsi üzrə Təhsildə sosial-psixoloji xidmət ixtisasında 9 plan yeri ikinci yerləşdirməyə qalıb.

Universitetə qəbul olunanların 56,68 faizi dövlət sifarişi əsasında, 43,32 faizi isə ödənişli əsaslarla qəbul olunublar.

Qeyd edək ki, hər il olduğu kimi bu il də yüksək nəticələrlə Pedaqoji Universiteti seçən gənclərin sayı kifayət qədərdir. 5 nəfər müsabiqədənkənar qaydada beynəlxalq yarışlardakı nəticələrinə əsasən, 4 nəfər isə 600 baldan yüksək nəticə ilə ADPU-nu seçib. Qəbul olunanların 14 faizindən çoxu (380 nəfər) 500 baldan yüksək, 55 faizə qədəri isə (1469 nəfər) 400 baldan yüksək nəticə göstərənlərdir. Cari il üçün subbakalavriat səviyyəsindən universitetə qəbul olan olmayıb. ADPU üzrə 2025/2026-cı tədris ili üçün orta qəbul balı ötən illə müqayisədə 9 bal qalxaraq 391,18 bal təşkil edir.

Pedaqoji Universitet və filiallarında 13 ixtisasın dövlət sifarişi üzrə keçid balı 500-dən çox olub. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə dövlət sifarişli yerlərin keçid balı həm ADPU-da, həm də universitetin beş filialının hər birində 500 balın üzərindədir. Bu ixtisasa ADPU və filialları üzrə dövlət sifarişli yerlərdə minimal keçid balı 522.7 balla 559.4 bal arasında dəyişir. Bu nəticələr ölkəmizdə müəllimlik peşəsinin artan nüfuzu, dövlətin düşünülmüş təhsil siyasəti və Pedaqoji Universitetdə müasir müəllim hazırlığı istiqamətində aparılan ardıcıl işlərin məntiqi nəticəsi hesab oluna bilər.

ADPU-da "Mexanikada yeni trendlər" I Beynəlxalq elmi konqresi keçirilib



Sentyabrın 2-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Nəzəri və Tətbiqi Mexanika Türk Milli Komitəsi ilə birgə keçirilən "Mexanikada yeni trendlər" I Beynəlxalq elmi konqresinin açılış mərasimi keçirilib. Konqresdən əvvəl iştirakçılar Fəxri Xiyabanda Ümumilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarları üzərinə gül dəstələri qoyub, onların əziz xatirəsini ehtiramla yad ediblər.

Konqresin plenar iclasında müxtəlif ölkələrdən olan alim və tədqiqatçılar, ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarının rəhbərləri, elm adamları, təhsil ictimaiyyətinin nümayəndələri, KİV təmsilçiləri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov iştirakçıları səmimiyyətlə salamlayıb və "Mexanikada yeni trendlər" I Beynəlxalq elmi konqresinin işinə uğurlar arzulayıb. Konqresin mexanika elminin ənənəvi istiqamətlərinə yeni elmi baxışların gətirilməsi, nəzəri və tətbiqi mexanikanın müasir çağırışlara uyğun transformasiyası, həmçinin mexanika və mühəndislik sahəsində beynəlxalq elmi əməkdaşlıqların genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini qeyd edən rektor 48 illik tarixi olan və hər 2 ildən bir Türkiyənin müxtəlif ali məktəblərində fasiləsiz keçirilən Milli Mexanika Konqresinin ilk dəfə olaraq beynəlxalq formatda və məhz Bakıda, Azərbaycan Dövlət Pedaqoji Universitetində təşkil olunmasının ölkəmizin elmi mühitində yeni mərhələnin başlanğıcı, Azərbaycanın elmi məkanının dünya elminə inteqrasiyasının, alimlərimizin beynəlxalq akademik proseslərdə aktiv iştirakının bariz göstəricisi olduğunu vurğulayıb.

Prof. C.Cəfərov konqres çərçivəsində müzakirə ediləcək 150-yə yaxın elmi məruzənin yalnız nəzəri nəticələrin təqdimatı ilə kifayətlənməyəcəyi, həm də real tətbiq imkanlarını ortaya qoyacağını, paralel sessiyalarda aparılacaq diskussiyalarda mexanikanın mühəndislik, aerokosmik, biomexanika, energetika və ekoloji problemlərin həllində oynadığı rolun daha dərindən anlaşılmasına xidmət edəcəyinə əminlik ifadə edib.

Nəzəri və Tətbiqi Mexanika Türk Milli Komitəsinin sədri professor Mehmet H. Omurtag mexanikanın müasir problemlərinə toxunaraq vurğulayıb ki, texnologiyaların sürətli inkişafı ilə mexanika sahəsində yeni nəzəri yanaşmaların və hesablama üsullarının tətbiqi vacibdir. Omurtag bildirib ki, bu kimi konqreslər gənc alimlərin yetişməsinə, elmi ideyaların mübadiləsinə və mühəndislik sahəsində qlobal elmi proseslərə inteqrasiyasına mühüm töhfə verir.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, konqresin Təşkilat Komitəsinin həmsədri professor Asəf Zamanov tədbirə ADPU-nun ev sahibliyi etməsinin qardaş ölkələrin elm adamlarının əməkdaşlığının genişlənməsinə vacib töhfələr verəcəyini vurğulayaraq bildirib ki, ABŞ, Almaniya, Avstriya, İtaliya, Türkiyə və Azərbaycanın müxtəlif universitetlərindən və elmi-tədqiqat institutlarından tanınmış alimlərin qatıldığı bu konqres mexanika və mühəndislik sahəsində beynəlxalq əməkdaşlıq üçün mühüm platformadır.

Qeyd edilib ki, müasir dövrdə elm sürətlə dəyişən texnologiyalar, süni intellekt, hesablama imkanları və rəqəmsal yanaşmalar fonunda yeni inkişaf mərhələsinə qədəm qoyub. Mexanika elmi isə bu proseslərin ayrılmaz tərkib hissəsidir. Prof. A.Zamanovun sözlərinə görə, mürəkkəb mexaniki proseslərin modelləşdirilməsi və analizi artıq yalnız klassik üsullarla deyil, həm də yüksək performanslı hesablama texnologiyaları və innovativ proqram təminatları vasitəsilə həyata keçirilir. Bu baxımdan konqresin Azərbaycanda keçirilməsi həm gənc tədqiqatçılar, həm də regionun elmi inkişafı üçün mühüm fürsətlər yaradır.

Professor A.Zamanov mexanikanın tarixi və müasir inkişaf istiqamətlərindən söz açaraq vurğulayıb ki, mexanika yüzilliklərdir insanın texnologiya ilə əlaqəsinin göstəricisidir. Mexanika ilk mexaniki kəşflərdən sənaye inqilabına, müasir dövrdə kompüter simulyasiyaları və nanomateriallara, gələcəkdə isə süni intellekt və biotexnologiyaların birləşməsinə qədər bəşəriyyətin inkişafının bütün sahələrində həlledici rol oynayır. Mexanika elminin gələcəyi isə interdisipliner yanaşmadadır. Material elmləri, biologiya və ekoloji tədqiqatlar mexanika ilə inteqrasiya olunaraq mürəkkəb, lakin səmərəli sistemlər yaradacaq. Belə ki, müasir mexanikada əldə olunan nailiyyətlər elektroavtomobillərin və yeni təhlükəsizlik sistemlərinin dizaynı, yüngül və dayanıqlı raket materiallarının, tibbi nano-implantlar, protez və reabilitasiya cihazlarının hazırlanmasında mühüm rol oynayır. Beləliklə, müasir mexanika sahəsi sürətlə inkişaf edir və insan, texnologiya və ekoloji aspektləri birləşdirir. Hesablama texnologiyaları, smart materiallar, nanomexanika, biomexanika və süni intellekt mühəndislərə daha effektiv, adaptiv və dayanıqlı sistemlər yaratmağa imkan verir. Ümid edirik ki, beynəlxalq konqresdə aparılan müzakirələr mexanika elm sahəsi üçün əhəmiyyətli və uğurlu olacaq.

Çıxış edənlərdən Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov, İdarəetmə Sistemləri İnstitutunun baş direktoru akademik Əli Abbasov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin akademik katibi, Fizika İnstitutunun baş direktoru akademik Arif Həşimov, Elm və Təhsil Nazirliyinin SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədova və İstanbul Texniki Universitetinin prorektoru professor Şənol Ataoğlu universitetlərarası əməkdaşlığın genişləndirilməsi, elmi tədqiqatların qlobal problemlərin həllinə yönəldilməsi barədə fikirlərini bölüşüb, beynəlxalq konqresin əhəmiyyətini vurğulayıblar.

Daha sonra konqres işini çoxsaylı bölmə iclasları ilə davam etdirib.

Qeyd edək ki, 2-5 sentyabr 2025-ci il tarixlərini əhatə etmiş "Mexanikada yeni trendlər" (New Trends in Mechanics) I Beynəlxalq elmi konqresi Nəzəri və Tətbiqi Mexanika Türk Milli Komitəsinin (TUMTMK) və ADPU-nun əsas təşkilatçılığı ilə İstanbul Texniki Universiteti, İstanbul Ticarət Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Texniki Universiteti, Riyaziyyat və Mexanika İnstitutu, İdarəetmə Sistemləri İnstitutu, Fizika İnstitutu və digər universitet və elmi-tədqiqat institutlarının dəstəyi ilə təşkil olunub.

Bakı və Quba şəhərlərində keçiriləcən paralel sessiyalarda müzakirələrin aparıldığı beynəlxalq konqresda strukturlar (konstruksiyalar) mexanikası, bərk cisim mexanikası, tətbiqi riyaziyyat, tətbiqi mexanika, maye mexanikası və kompozit materiallar mexanikası sahələrində 150-ə qədər elmi məruzə təqdim edilib.

Tiraj - 500
Şəhadətnamə - № 191

GƏNC MÜƏLLİM QƏZETİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

ADPU tələbələri Beynəlxalq Xalça Festivalında

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) fəaliyyət göstərən Yeni Klubun təşkilatçılığı ilə tələbələrin Bakıda keçirilən Beynəlxalq Xalça Festivalına ekskursiyası təşkil edilib. Festival çərçivəsində tələbələr müxtəlif ölkələr və bölgələrin nadir xalça nümunələri, xalçaçılıq texnikaları, ənənəvi naxışlar və müasir dizaynlarla tanış olub, ustad dərslərində və sərgilərdə iştirak ediblər.

Festival zamanı tələbələr üçün maraqlı təqdimatlar və interaktiv proqramlar təşkil olunub, onlar xalça toxunması prosesini canlı izləmək imkanı əldə ediblər.



"Code for Future" layihəsinin cari il üzrə yekun tədbiri keçirilib

İyunun 23-də Azərbaycan Dövlət Pedaqoji Universitetində Elm və Təhsil Nazirliyi ilə "Alqoritmika" Beynəlxalq Proqramlaşdırma və Riyaziyyat Məktəbinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Code for Future" layihəsinin 2024-2025-ci tədris ili üzrə bağlanış tədbiri keçirilib.

Tədbirdə ADPU-nun rektoru professor Cəfər Cəfərov, universitet rəhbərliyi, "Alqoritmika" şirkətinin nümayəndələri, layihə çərçivəsində tədris prosesində iştirak edən təlimçilər və tələbələr iştirak ediblər.

Tədbirin açılışında çıxış edən professor Cəfər Cəfərov layihənin əhəmiyyətindən bəhs edərək, gələcək müəllimlərin innovativ bilik və bacarıqlara yiyələnməsinin ölkənin təhsil strategiyasına verdiyi töhfəni vurğulayıb.

Daha sonra layihə rəhbəri Nəzrin Əliyeva cari tədris ili üzrə həyata keçirilmiş fəaliyyətlər və əldə olunan nəticələrlə bağlı təqdimatla çıxış edib. N.Əliyeva bildirib ki, layihədə tədris ili üzrə ümulikdə 222 tələbə iştirak edib, təlimlərdə 84% ümumi performans və 93% davamiyyət qeydə alınıb. Tədris ili müddətində 7 dərsdənkənar tədbir təşkil olunub. Tədbir 2024-2025-ci tədris ili üzrə layihə məzunlarına sertifikatların təqdim edilməsi ilə yekunlaşdırılıb.

Qeyd edək ki, "Code for Future" layihəsi gələcək müəllimlərin informatika fənninin tədrisində daha





innovativ və effektiv yanaşmaları öyrənməsini, bu sahədə bilik və bacarıqlarını inkişaf etdirməsini hədəfləyən təşəbbüsdür. Layihə çərçivəsində tələbələrin həm texniki bilikləri, həm də praktiki bacarıqları gücləndirilir, onların tədris prosesində yeni texnologiyalardan istifadə etmə vərdişləri formalaşdırılır.

BAŞSAĞLIĞI

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi və professor-müəllim heyəti adından mərhum əməkdaşımızın və tələbələrimizin yaxınlarına dərin hüznlə başsağlığı veririk!

Allah rəhmət eləsin!



Fəlsəfə və sosial fənlər kafedrasının müəllimi Ənvər Seyidov



Tarix və coğrafiya fakültəsinin III tədris ili tələbəsi Elnur İsmayılov



Kimya və biologiya fakültəsinin I tədris ili tələbəsi Balaxanım Əliyeva




İncəsənət və fiziki tərbiyə fakültəsinin IV tədris ili tələbəsi Gülnar Əmirova

Redaksiya heyəti



Professor Cəfər Cəfərov
Müşahidə şurasının sədri



Dosent Eldar Aslanov
Müşahidə şurasının üzvü


Professor Asəf Zamanov
Müşahidə Şurasının üzvü



Professor Fikrət Rzayev
Müşahidə Şurasının üzvü



Professor Mahirə Hüseynova
Müşahidə Şurasının üzvü


Könül Pirverdiyeva
Müşahidə Şurasının üzvü


Tural Cəlilov
Müşahidə Şurasının üzvü


Taleh Mirzəyev
Redaktor


Məhəmməd İsrayılzadə
Redaktor


Nurlan Səmədov
Fotoqraf


Elvin Vahidov
Dizayner

Fotolar Nurlan Səmədovundur. Qəzet "Gənc Müəllim" qəzetinin redaksiyasında yığılıb, səhifələnib və "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunub. Sifariş №: 2122

Ünvan: Bakı şəhəri, Səbail rayonu, Ü.Hacıbəyli küçəsi, 68 / Əlaqə: +994 50 868 08 33 / Qəzetdə qeyd edilən faktlara görə redaksiya məsuliyyət daşımır.